www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 iyul 2015-ci il Bazar ertəsi № 151 (6179) Qiyməti 40 qəpik

## Xəbər

### Maştağada oğlunun toyuna hazırlaşan ata öldürüldü

yazısı səh.14-də

## Gündəm

### Böyük təhlükə: Qarabağda rus anklavı?



Dağlıq Qarabağa rusların böyük köçünün stimullaşdırılması ciddi təhdid yaradır; rusların yaşadığı ərazi avtomatik şəkildə Moskvanın maraq dairəsində olacaq - Krım, Luqansk, Donetsk, Abxaziya, Dnestryanı kimi...

yazısı səh.10-da

### Ağır durumda olan AXCP rayon Məclisinin üzvü istefa verdi

yazısı səh.4-də

### Milyon manatlarla dövlət əmlakını mənimsəyən Qüdrət Şükürov mediadan niyə gizlənir?

yazısı səh.12-də

### Paytaxtda aksiya - "Yasamal MTK" 250 ailənin pulunu "yeyib"

Narazı sakinlər Prezident Administrasiyası qarşısında aksiyaya hazırlaşırlar: "Ümidimiz dövlət başçısınadır..."

yazısı səh.3-də

### ABŞ-ın maliyyə, Rusiyanın silah yardımı ayırdığı işğalçı...

yazısı səh.9-da

### Müxalifəti necə dəyişdirməli...

yazısı səh.7-də

### Paytaxtda avtobus qəzaları niyə artıb?

yazısı səh.12-də

### Manatın ucuzlaşması riski artır - ekspert

yazısı səh.6-da

### "Qa" deyəndə çörək, "qu" deyəndə su... - təyyarələrdəki sinif fərqi neçəyədir?

yazısı səh.13-də

### Kömək diləyən 48 ilin müəllimləsi intihar həddinə çatdırılıb

yazısı səh.14-də

### Ramazan ayının 26-cı günü

İftar 21.28. İmsaq (azan) 4.54 (QMİ)

26-cı günün duası: "İlahi, bu gün mənim səyimi bəyənilmiş, günahımı bağışlanmış, əməlimi qəbul olunmuş və eybimi örtülmüş qərar ver! Ey eşidənlərin ən gözəl Eşidəni!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

Bu gün 4-cü Qədr gecəsidir.

## Azərbaycan uğrunda geosiyasi savaş yeni mərhələdə

# BAKININ "ŞANXAY GEDİŞİ" - BALANS DƏYİŞİR?

Çəkişən ABŞ və Rusiya üçün Azərbaycan indi təkcə neft-qazına görə dəyər daşımır; Kremlin "dobro"su ilə ölkənin öz üzünü Asiyaya çevirməsinə Qərbin seyrçi qalmayacağı gözlənilir; ABŞ Dövlət Departamentinin xüsusi elçisinin Bakı səfərinin daha bir pərdəarxası...



yazısı səh.8-də

# YAP-ın "üç qızıl dairə"si uğrunda mübarizə

Yaxın iki həftədə hakim partiya namizədlər siyahısını prezidentə təqdim etməlidir; siyahıda "100 faiz" adı olanlar belə rahat deyillər və onlar avqustun ilk həftəsinədək gözləməli olacaqlar; rektorlar niyə yenidən deputat olmaq istəyir...

yazısı səh.7-də



Atilla Kaya

### Dövlət Baxçalının müavinindən hadisə kimi müsahibə

yazısı səh.5-də



### "ABŞ Putinə qarşı qiyam hazırlayır" - deputatdan şok iddia

yazısı səh.11-də



Leyla Yunus

### Bu gün Yunusların məhkəməsi başlayır

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 151 (6179) 13 iyul 2015



## Araz Ağalarov: "Emin hər həftə onların yanına uçur"

**Oğlu Eminlə Leyla Əliyevanın boşanmasına keçən ay münasibət bildirən Rusiyada yaşayan azərbaycanlı milyarder Araz Ağalarov bu barədə bir daha danışıb.**

Anspress xəbər verir ki, "Crocus" şirkətlər qrupunun prezidenti dost olaraq qaldıqlarını bəyan edərək birlikdə boşanma qərarı verən cütlüyün münasibətlərinin çox yaxşı olduğunu açıqlayıb. "Eminlə Leyla əvvəllər olduğu kimi çox yaxşı münasibətlərini saxlayıblar. Onlar uşaqlarını birlikdə tərbiyə edirlər. Leyla və əkizlərin harada olmasından asılı olmayaraq o, hər həftə onların yanına uçur" - deyə, o "Komsomolskaya Pravda"ya müsahibəsində bildirib.

Araz Ağalarov oğlunun şəxsi həyatında baş verən bu hadisəni ilk dəfə şərh edərkən təəssüfləndiyini bildirmişdi: "Mən çox təəssüf edirəm ki, belə alındı. İkisi də mehriban, pozitiv insanlardır. Görünür, nə isə alınmadı".

Qeyd edək ki, Emin və Leylanın Əli və Mikayıl adında əkizləri var. Xatırladaq ki, prezident İlham Əliyevin böyük qızı Leyla Əliyeva və həyat yoldaşı Emin Ağalarov 30 may 2015-ci il tarixində birlikdə boşanma qərarını veriblər. Bu barədə ilk olaraq xanım Əliyeva sosial şəbəkədə bəyan edib.

## Bakıda küləkli hava davam edəcək



**Həftənin ilk iş günü Bakıda güclü şimal küləyi əsəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, iyulun 13-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyinin güclənəcəyi ehtimal edilir.**

Bakı və Abşeron yarımadasında havanın temperaturu gecə 20-25, gündüz 26-31 dərəcə isti olacaq. Azərbaycanın rayonlarında iyulun 13-də hava əsasən yağmursuz keçəcək. Lakin axşam və gecə bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 20-25, gündüz 33-37 dərəcə isti olacaq.

### Başsağlığı

İsa Qəmbər və Milli Strateji Düşüncə Mərkəzi vicdan məhbusu Yadigar Sadıqlıya xalası Həbibə xanımın vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Arif Hacılı və Müsavat Partiyasının Divanı vicdan məhbusu Yadigar Sadıqlıya xalası Həbibə xanımın vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Bu gün Leyla və Arif Yunusların məhkəməsi başlayır

## Qarşıdakı günlərdə bəzi siyasilərin apelyasiya şikayətlərinə baxılacaq...

**Bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində həbsdəki Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus və həyat yoldaşı Arif Yunusun məhkəməsi başlayır. Proses saat 10:00-da hakim Əfqan Hacıyevin sədrliyi ilə başlayacaq.**



Bu barədə müsavat.com-a Leyla Yunusun vəkili Elçin Qəmbərov məlumat verdi: "İyulun 13-də hazırlıq iclası olacaq. Adətən ilkin baxış xarakteri daşıyır, müdafiə tərəfinin vəsatətləri olur. Dövlət ittihamçısı tərəfindən də müəyyən məsələlər qaldırıla bilər. Cinayət işinə işin mahiyyəti üzrə yanaşılmadı. Proses əslində qalsa, qanunvericiliyə uyğun olaraq açıq keçirilməlidir. Xəyanət maddəsinə hələ ki, baxılmayacaq. İndiyədək aparılan istintaqdan qane deyilik. Bununla bağlı məhkəmədə öz arqumentlərimizi deyəcəyik".

Leyla Yunus ötən il iyulun 30-da həbs edilib. Həbsindən bir həftə sonra həyat yoldaşı Arif Yunus saxlanılıb. Leyla və Arif Yunuslar dələduzluq, qanunsuz sahibkarlıq, vergidən yayınma və sənədlərin saxtalaşdırılmasında ittiham olunurlar. Onlara qarşı dövlətə xəyanət ittihamı isə ayrıca icraata götürülüb.

Siyasi məhkəmələr bununla bitmir. İyunun 14-də Müsavat başqanının müavini Fərəc Kərimlinin Apelyasiya Məhkəməsi olacaq. F.Kərimli ötən il iyulun 23-də həbs edilib. Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitə əldə etmə, saxlama, satma, daşıma) maddəsi ilə təqsirləndirilərək, 6 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

İyunun 21-də Apelyasiya Məhkəməsində iki siyasi proses olacaq. Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyev və İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun şikayətinə baxılacaq. İntiqam Əliyevin qızı Nərmin Kamilsoy iyulun 6-da keçirilən məhkəmədə müdafiə tərəfinin bütün vəsatətlərinin rədd olunduğunu qeyd etdi: "Məhkəməyə gətirilərkən yenə də vəziyyəti pisləşmişdi. Dərmanlar atandan sonra özünə gəldi. Zalda şüşə arxası deyilən "akvarium"a salmışdılar. Danışmağına icazə vermirdilər. Vəkilləri ilə danışığına belə mane olurdular. Hazırda atam kamerada istilərdən ciddi əziyyət çəkir. Sərinkeş belə yoxdur. Balaca nəfəslikdən hava alırlar. Qəzetlərin çatdırılmasında yenə ciddi problemlər var. Ümumiyyətlə, vəziyyəti yaxşı deyil".

Xatırladaq ki, İntiqam Əliyev 2014-cü ilin avqustunda həbs olunub. Aprelin 22-də Bakı Ağır Cinayətlər Məhkəməsi onu vergidən yayınma, vəzifə səlahiyyətindən sui-istifadə, mənimsəmə, vəzifə saxtakarlığı və qanunsuz sahibkarlıqda ittiham edərək 7,5 il müddətinə azadlıqdan məhrum edib.

Rəsul Cəfərovun qardaşı Sənan Cəfərov azacıq da olsa, məhkəməyə ümidlərinin olduğunu söylədi: "Ayın 21-də birinci Apelyasiya Məhkəməsi olacaq. Məkəmə qabağı həmişə olduğu kimi, yenə azacıq da olsa, ümidlərimiz var. Hazırda səhhəti pis deyil. Əhval-ruhiyyəsi yüksəkdir".

R.Cəfərov 2014-cü il avqustun 2-də həbs olunub. Ona qarşı CM-in 192 (qanunsuz sahibkarlıq), 213 (vergi ödənişindən yayınma) və 308-ci (vəzifə səlahiyyətindən sui-istifadə) maddələri ilə ittiham irəli sürülüb. Məhkəmənin qərarı ilə o, 6 il yarım azadlıqdan məhrum edilib.

❑ **Cavanşir ABBASLI**



## Yalancı həkimə 45 il həbs cəzası

**ABŞ-da Farid Fata adlı həkim puldan ötrü xəstələrə lazımsız yerə hemoterapiya tətbiq edərək onları zəhərləyib. Əvəzində 45 illik həbs cəzasına məhkum edilib. Onun boş-boşuna müalicə etdiyi 553 xəstənin bir qismi heç xərçəng belə deyilmiş.**

Sputnik Türkiyənin "Hürriyət" qəzetinə istinadən xəbər verir ki, ABŞ-ın Miçiqan ştatının Detroit şəhərində qazanc əldə etmək üçün sağlam insanlara xərçəng diaqnozu qoyaraq onlara hemoterapiya tətbiq edən, xərçəngin son mərhələsində isə ölümcül xəstələrə həddindən artıq dozada dərman verən Farid Fatanın əməlləri üzə çıxar-çıxmaz, 45 illik həbslə yekunlaşıb.

Sığortalı və sığortasız xəstələrdən 17 milyon dollar qazanc əldə edən Fatanın əsassız yerə hemoterapiya tətbiq etdiyi qurbanların yaxınları ona verən cəzanı yüngül hesab edirlər.

Ötən ilin sentyabrında Fatanın müalicə etdiyi 62 yaşlı həyat yoldaşını itirən Patrisia Loeuen deyib: "Ərimi öldürüb. O, ömür boyu həbsdən çıxmamalıdır".

Fataya 175 il həbs cəzası istəyən prokuror isə deyib ki, o, pula görə insanları zəhərləyib. Doktor Farid Fatanın xəstəsi olub həyatını itirənlərin yaxınları ona 45 il həbs cəzasının az olduğunu bildirərək qərarın əleyhinə çıxıblar. Onlar əllərində şüarlar tutaraq məhkəmənin qərarına etiraz ediblər.

# Azərbaycandan Ermənistanı ifşa edən açıqlama

## XİN: "Ermənistan Avroparlamentin qətnaməsini təhrif etməkdən də utanmır"

**"Ermənistan Avroparlamentin qətnaməsini təhrif etməkdən də utanmır". Bunu "Trend"ə müsahibəsində Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.**




"Bu ilin 9 iyul tarixində Avropa Parlamentinin (AP) Strasburqda keçirilən plenar iclası çərçivəsində məruzəçi Eduard Kukanın hazırladığı "Avropa Qonşuluq Siyasətinin nəzərdən keçirilməsi" adlı qətnamə qəbul edilib. Qətnamədə həlli uzadılmış münaqişələr məsələsi necə əhatə olunub" sualına cavabında XİN sözçüsü bildirib ki, qətnamədə Avropa Qonşuluq Siyasəti bölgəsinin təhlükəsizliyi məsələsinə əhəmiyyətli yer ayrılıb:

"Belə ki, qonşuluq ərazisinin böyük hissəsinin silahlı münaqişələrdən əziyyət çəkdiyi qeyd olunaraq bu ərazidə mövcud olan həlli uzadılmış münaqişələrin iqtisadi, sosial və siyasi dəyişiklik proseslərinə əngəl törətdiyi vurğulanır. Bu xüsusda, AQS-nin inkişafına başlıca manеə törədən həlli uzadılmış münaqişələrin həm Şərq, həm də Cənub istiqamətində həllində Aİ-nin daha fəal rol oynamalı olduğu qeyd olunur.

Qətnamədə Avropa Qonşuluq Siyasəti ölkələri ilə münasibətlərdə dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə dəstək verilməsinin başlıca prinsip olduğu xüsusilə vurğulanır və bu xüsusda bir dövlət tərəfindən digərinin ərazisinin işğalının yolverilməz olduğu bəyan edilir.

Qətnamənin sonunda bir daha tərəfdaş ölkələrin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə dəstək ifadə olunur və AQS-nin bu prinsiplərə töhfə verməklə yanaşı, onları təcrübədə dəstəkləməli olduğu qeyd olunur.

Xüsusilə qeyd etmək lazımdır ki, hazırkı qətnamə AP-nin bundan öncəki 23 oktyabr 2013-cü il qətnaməsinə istinad edir və xatırlatmaq istərdik ki, burada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqe ifadə olunaraq bəyan edilirdi: "Şərq Tərəfdaşlığının bir ölkəsinin digərini işğal etməsi Şərq Tərəfdaşlığının fundamental prinsip və məqsədlərini pozur və Dağlıq Qarabağ münaqişəsi BMT TŞ-nin məlum 4 qətnaməsi əsasında həll olunmalıdır".

Təəssüflər olsun ki, münaqişənin həllinə dair beynəlxalq ictimaiyyətin çağırışlarına məhəl qoymayan Ermənistan bu qətnaməni də təhrif etməkdən çəkinmir. Hətta reallıq hissini itirərək qətnamədə olmayan ifadələri belə yalan şəklində ora əlavə etməkdən çəkinmir. Bu da əslində zəifliyin və Ermənistanın beynəlxalq səviyyədə artmaqda olan təcridinin göstəricisidir".

# Günün içindən



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**İyulun 12-də Bakının Yasamal rayonunda əlliyə yaxın vətəndaş etiraz aksiyası keçirib. Onlar mənzil aldıqları binanın sahibi tərəfindən aldadılmalarından, doqquz il ərzində binanın hazır olmamasından, bir mənzilin bir neçə nəfərə satılmasından, həmçinin, verdikləri pulu geri ala bilməmələrindən şikayətləniblər.**



## Paytaxtda aksiya - "Yasamal MTK" 250 ailənin pulunu "yeyib"

### Narazı sakinlər Prezident Administrasiyası qarşısında aksiyaya hazırlaşırlar: "Ümidimiz dövlət başçısınadır..."

Sakinlər bildirirlər ki, 250 ailə Yasamal rayonu, Məhəmməd Xiyabani küçəsində yerləşən binanın tikilib başa çatmasını doqquz ildir ki, gözləyir. Binanı tikən "Yasamal MTK"nın rəhbərliyi isə onları aldadaraq illəri yola verir və nəticədə 250 ailə küçələrdədir.

"Doqquz ildir ki, bu binanın tikiləcəyini deyirlər, hər ay gəlirik, deyirlər bu gün-sabah bina hazır olacaq. İllərdir buraya pul ödəmişik, ancaq pulumuzu yeyib, bizə də atıblar", - binanın yeddi illik "sakini" bildirir. Üstəlik, illər keçdikcə, vətəndaşlara məlum olub ki, eyni mənzillər müxtəlif adamlara satılıb. İndi camaat iki daş arasında qalıb - nə bina tikilir, nə də mənzillərlə bağlı yaranmış bu problem çözülür. MTK rəhbərliyi isə aradan çıxıb. Narazı vətəndaşlar nə onu tapa bilir, nə də mənzillərin nə zaman hazır olacağı barədə bir söz eşidə bilirlər. Əksinə, sakinlər bildirirlər ki, MTK rəhbərliyi haqqını tələb edən bina sakinlərini öz tanışları vasitəsi ilə hədələyir, həmçinin, evlərin pulunu yediyini və vəziyyətin beləcə də qalacağını vurğulayır.

"Bizi hədələyir, təhdid edir. Mənzilimizi istəyən kimi deyir ki, səni öldürtdürərəm".

Sakinlərin sözlərinə görə, "Yasamal MTK"nın rəhbərliyinin fırıldağı barədə Korrupsiyaya qarşı Mübarizə İdarəsindən tutmuş Rayon İcra Hakimiyyətinə qədər bir çox instansiyalara şikayət məktubları göndərsələr də, nəticəsi olmayıb: "Yazmadığımız yer qalmayıb. Nəticəsizdir. Rəsmilər, aidiyyəti qurumlar niyə məsələni araşdırmırlar? 250 ailə küçələrdə qalıb. İllərdir kirayələrdəyik, mümkün deyil yaşamaq. Buradakı mənzilin krediti, üstəlik, başqa evin kirayəsi... Biz vətəndaş deyilikmi? Niyə şikayətlərimiz cavabsızdır? MTK rəhbərliyini kimdir bu qədər müdafiə edən, qoruyan?".





Şikayətçi Elvin Qurbanov deyir ki, bu binadan üç il əvvəl mənzil alıb: "Alanda dedilər ki, iki-üç aya bina təhvil verilir, gəlib təmirə başlaya bilərəm. Aradan üç il keçir, bu müddətdə heç bir iş görülməyib, həmin vəziyyətdir. Buranı on illik kreditə almışam, ayda 550 manat pul verirəm. Üstəlik, illərdir ki, kirayədə qalıram. MTK bizi aldadıb. Bina tikilib və üstü örtülüb. Bir az gücü iş getsə, təhvil verilə bilər. Ancaq etmirlər. Bina rəhbərliyi söz göndərir ki, əcəb edib pulunuzu yemişəm-filan. İllərdir ki, camaat binanın təhvil verilməsini gözləyir".

Nurəddin Rəhimov isə qeyd edir ki, binanın tikintisi 2005-ci ildə Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq qərarı ilə başlayıb: "Əvvəlcə Cahangir, Nəsib və Əliheydər adlı üç təsisçisi olub. Sonra Əliheydər tutulub, digər ikisi isə bizi beləcə süründürür. İllərdir yollardayıq. Əlimizdə onlarla ərizələr var, heç birinə baxılmayıb. Hüquqi dövlətdə on gün ərzində cavab gəlməlidir, ancaq bir cavab yoxdur. Ancaq deyirlər ki, şikayətinizi aldıq. Heç bir araşdırma, yazılı cavab yoxdur. Əksinə, MTK rəhbərliyi kimlərəsə o qədər güvənir ki, bizi öldürtdürəcəyi ilə hədələyir".

Sakinlərdən Afiq Əliyev isə qeyd edir ki, beş ildir ki, binadan mənzil alıb, ancaq indi nə mənzilə sahib ola bilir, nə də verdiyi pulu geri qaytara: "Vətəndaşların daha MTK-ya güvəni qalmayıb. Verdiyimiz pullar hədər gedib, kirayələrdə qalırıq. Biz mənzilimizi tələb edirik".

Aksiya keçirən vətəndaşların yanına gələn və özünü MTK sahibini qohumu kimi təqdim edən şəxs isə sakinlərə rəhbərliklə görüş təklif edib: "Gedək danışaq, bir yola qoyaq". Ancaq sakinlər bildiriblər ki, MTK rəhbəri onların yanına gəlib dinləməlidir və problemi həll etməlidir. Həmçinin, sakinlər bildiriblər ki, onlar imza toplayaraq dövlət başçısı İlham Əliyevə, Korrupsiya İdarəsinə və digər qurumlara yekun müraciət göndərəcəklər: "Dövlət başçısından hüquqlarımızın bərpası üçün köməklik istəyirik. Ümidimiz dövlət başçısınadır".

Şikayətçilər MTK rəhbərliyi qısa müddətdə problemi həll etməzsə, Prezident Administrasiyasının qarşısında aksiya keçirəcəklərini vurğuladılar.

Məsələni diqqətdə saxlayacağıq.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

## "Dinimiz bankdan kredit götürməyi haram hesab edir"

**İlahiyyatçı Bəhruz Camal:** "Lakin kreditlə ev, avtomobil, məişət əşyaları almaq qəbahət deyil..."

**Ölkədə çətin vəziyyətə düşən əksər insanlar banklardan kreditlə pul götürməyə tələsir. Və yaxud da tez bir zamanda ev, maşın sahibi olmaq arzusu ilə düşünmədən yüksək faizlə ev, avtomobil almaq istəyənlərin sayı kifayət qədər çoxdur. Lakin sonradan həmin şəxslər əksər hallarda banklara olan borcları vaxtında verə bilmir və ağır vəziyyətlə qarşılaşırlar.**

Bu səbəbdən intihar edənlərin də sayı artmaqdadır. Məsələn, bu günlərdə Bərdə rayonunda baş verən intihar hadisəsi hər kəsi sarsıtdı. Deyilənə görə, 23 yaşlı Elşad Dadaşov banklara borclu olduğu üçün ağır vəziyyətə düşüb və çıxış yolu kimi özünə qəsd edib.

Ümumiyyətlə, kredit fazili borc deməkdir. Bu isə sələmin bir növü hesab edilir. Bəs görəsən dinimizdə buna münasibət necədir? Tanınmış ilahiyyatçı Bəhruz Camal "Yeni Müsavat"a bildirdi ki, Qurani-Kərimə görə, riba, yəni faizlə borc alıb-vermək haram sayılır: "Əslində hazırkı bankların əksəriyyəti faiz verməklə məşğuldur. Buna şəriət terminologiyasında riba deyilir. Banklar əhalinin rifahının yaxşılaşdırılmasına xidmət etməkdənsə, əksinə, onları yüksək faizlərlə yükləyib lap pis vəziyyətə salırlar. Bu isə şəriətlə haramdır".



Bəhruz Camal

İlahiyyatçı İslam dinində bankçılıq sisteminə yanaşma və qaydaların tam fərqli olduğunu da deyib: "İslam bankçılıq sistemində ribaya yol vermir. Hərçənd, bəzi din alimləri çıxılmaz vəziyyət və zərurət yaranarsa, banklardan müəyyən şərtlərlə pul götürməyi icazəli hesab edirlər. Lakin praktik olaraq hələ biz bankların pulundan xeyir-bərəkət əldə edən birini tanımırıq".

"Müasir dövrdə gənc ailələrin demək olar ki, əksəriyyəti ev, avtomobil, məişət əşyalarına daha çox kreditlə almağa üstünlük verir. Bu dində qəbahət hesab edilirmi" sualımıza ilahiyyatçı belə cavab verdi: "Dində kreditlə ev, avtomobil, məişət əşyaları almaq qəbahət deyil. Yalnız kreditlə pul götürmək haramdır".

Bəzən banklarda işləməyin də günah olması barədə məlumatlar yayılır. İlahiyyatçı bu məsələ barəsində də danışdı: "Bu cür iddialar əsassızdır. Lakin əgər şəxs bankda pul krediti ilə bağlı şöbələrdə işləyirsə, onun haram olması güman edilir".

❑ **Xalidə GƏRAY**

## Ömər Şərif haqda kiçik yazı...



**Hüseynbala SƏLİMOV**

**Çoxdanın, lap çoxdanın söhbətidir. Biz onda hələ uşaq idik. Mərkəzi televiziya ilə "Sirli ada" filmini göstərirdilər. Bir neçə seriyalı film idi. O vaxt mən bildim ki, bu film Jül Vernin əsərləri əsasında çəkilib. Sən demə, onun ən məşhur qəhrəmanlarından biri də kapitan Nemo imiş. Bu, elə bir surət idi ki, mən onu yalnız Şerlok Holmsa bərabər tutardım...**

Filmdə kapitan Nemo rolunu ilk baxışda belə şərqliyə oxşayan aktyor oynayırdı. Mən onun adını öyrəndin. Adı Ömər Şərif imiş. Doğrusu, o vaxt mən hələ bilmirdim ki, bu aktyor haralıdır, başqa hansı filmlərə çəkilib. Bəli, indi internetdə hər şeyi dərhal öyrənmək olur. O vaxt isə belə deyildi, bir şeyi öyrənmək üçün sözün əsl mənasında kitablar arasında can çürütmək lazım idi...

Qərəz, mən başladım kapitan Nemo, Nautilius qayığı və bütün bunları uyduran J.Vernlə ciddi maraqlanmağa. Maraqlanmaq deyəndə ki, o vaxt bir məktəb, bir də rayon kitabxanası olardı. Oralara baş vurdum. Təbii ki, məktəb kitabxanasında heç bir şey tapa bilmədim. Rayon kitabxanasında isə Jül Vernin "Kapitan Qrantın uşaqları" kitabını tapdım...

Sonradan hətta daha bir filmə də baxa bildim. Bu film artıq sovet filmi idi və təbii ki, kapitan Nemo rolunu rus aktyoru oynayırdı. Amma bu, Ömər Şərif deyildi və onun yerini verə bilməzdi...

Qərəz, J.Vernin bu kitablarını tapmaq üçün mən haralara əl atmadım? Bizim bir coğrafiya müəllimimiz vardı. Özü də hərdənbir cızma-qara edərdi. Ondan da soruşdum. Dedi ki, məndə var o kitablar. Oxumağa verməsini xahiş etdim, amma təsəvvür edin ki, vermədi...

O vaxtın müəllimləri belə idi. Danışanda, necə deyərlər, ağızlarına çullu dovşan sığmırdı. Elə ki, bir uğur qazanırdın, o saat qarğa kimi qıy-qışqırıq salırdılar ki, bəs bizim şagirdimiz, bizim yetirməmizdir. Amma oxumağa bir kitabı vermirdilər...

Qərəz, məktəb illərində mənim kapitan Nemo ilə bağlı arzum çin olmadı. Bu əsərlər haqqında çox şey oxudum. Hətta Perelmanın (adını unutmuşam!) "Əyləncəli fizika" kitabından Nautilius sualtı qayığı ilə bağlı maraqlı şeylər oxudum. Amma gəl, J.Vernin həmin əsərlərini tapa bilmədim ki, bilmədim...

Bir detalı da deyim. O vaxt oxudum ki, J.Vern kitabxanadan başqa bir yerə getməyibmiş, hər şeyi oxuduqlarının əsasında uydururmuş. Mən isə onu az qala böyük səyyah hesab edirdim...

Qərəz, uşaqlıq başa çatdı. Mən o kitabları axır ki, oxudum. Amma artıq gec idi. Bəlkə də onları vaxtında oxusaydım bu, mənim taleyimi dəyişəcəkdi, bəlkə mən ömrümü sualtı qayıqları öyrənməyə həsr edəcəkdim...

Amma nə etmək olar? Bu, da taledir. Vaxtında oxuduğumuz və oxumadığımız bir kitab bizim taleyimizi dəyişə bilərmiş...

Fəqət, uşaqlıqdakı marağa görə peşman da deyiləm. Hər halda, bu, mənə çox şey verdi. Əvvəl elə bilirdim ki, məşhur fransız aktyoru kimi Ömər Şərif də azərbaycanlıdır. O vaxt biz çox adamı azərbaycanlı bilirdik. Məsələn, deyirdilər ki, məşhur fantast Ayzek Əzimov da azərbaycanlıdır. Doğrusu, mən hələ də bunun həqiqət və yalan olduğunu bilmirəm. Hətta internetə də baş vurmuşam, bunu yoxlamağa çalışmışam. Amma dəqiqləşdirə bilməmişəm və bu maraq da məndə hələ də qalıb...

Qayıdaq Ömər Şərifə. O vaxt nəhayət, öyrəndim ki, o, ərəbdir. Hətta təhsilinin də fizika-riyaziyyatla bağlı olduğunu öyrənə bildim...

Nə gizlədim? Ömər Şərif Misiri mənim gözümdə bir az da qaldırdı. Zarafat deyil! İki dəfə Qızıl Qlobus və Oskar mükafatları...

Misir mənim üçün o vaxtlar daha çox Naqib Məhfuzla bağlı idi. Bəli, Nobel mükafatı almış ilk ərəb yazıçısı ilə...

İndi Misirin sərəncamında daha bir Nobel var. Heç kimyaçı Əhməd Zeveyli unutmaq olarmı?...

Qərəz, bu günlərdə Ömər Şərif vəfat etdi və mən onun haqqında bir az da çox bildim. Məsələn, mən heç bilmirdim ki, o, doktor Jivaqo rolunda da çəkilibmiş!..

Yada salım ki, bu, yazıçı və şair B.Pasternakın eyni adlı əsəri əsasında çəkilən filmdir. Həmin əsərə görə B.Pasternaka Nobel mükafatı verdilər və elə həmin əsərə görə də B.Pasternak sovet rejiminin qəzəbinə tuş gəldi...

İndi bizdə idmana həddən artıq diqqət yetirirlər. Olsun. Amma mən həmişə deyirəm ki, hər şeydən uca bir şey var- o, da mədəniyyətdir...

Şəxsən mənim üçün bir azərbaycanlının Oskar alması on idmançının qızıl medalına bərabərdir... Bəlkə də yanılıram... Amma mən belə düşünürəm və hesab edirəm ki, mənimlə razılaşanlar da tapılar...

YENİ MÜSAVAT
N 151 (6179) 13 iyul 2015





# Ağır durumda olan AXCP rayon Məclisinin üzvü istefa verdi

## Maarif Mehdiyev: "Partiya üzvlərinə müraciət etməyimin mənası yoxdur, hamı vəziyyətimin ağırlığını bilir, amma dəstək yoxdur..."

**AXCP-nin Nərimanov şöbəsinin Məclis üzvü Maarif Mehdiyev ağır xəstədir. Maddi imkanının olmaması səbəbindən partiya fəalı ölümlə üz-üzə qalıb. Bağırsaqlarındakı problemlərdən ciddi əziyyət çəkən M.Mehdiyev "Yeni Müsavat"dan kömək istəyib.**

Bakının "Montin" ərazisində zirzəmini xatırladan birotaqlı evdə yaşayan Maarif bəylə görüşdük. Gördüyümüz mənzərədən sarsılmamaq mümkün deyildi. Ev balaca bir daxmanı xatırladırdı. Səhhətinə görə işləyə bilməyən AXCP Məclisinin üzvünün yalnız həyat yoldaşı çörəkpulu qazanır. Maaşın azlığı onların yalnız gündəlik tələbatlarını güclə ödəyir.

Bizi görən Maarif bəyin gözləri doldu. Çünki onu illərini verdiyi partiyadaşları tək qoyublar. Bir dəfə də olsun canını qoyduğu AXCP-dən nə maddi, nə də mənəvi yardım görməyən M.Mehdiyev partiya rəhbərliyinin laqeydliyindən gileyləndi.

Maarif bəy ürəkağrısı ilə dinlədiyimiz həyat hekayəsini "Yeni Müsavat"a belə nəql etdi: "52 yaşım var. 1988-ci ildən fəal siyasətdəyəm. AXCP üzvüyəm. 7 ildən artıqdır xəstəliyimlə əlaqədar ciddi əziyyət çəkirəm. Qohumlarım bu illər ərzində az da olsa, kömək etdilər. Son üç ildə isə, ümumiyyətlə, kömək edən yoxdur. Əsas xəstəliyim bağırsaqdır. Ayağıma şiş verir. Şiş verdikcə, asan yola əl atmağa məcbur oluram. Şişi yardırıram. Çünki müalicəyə imkanım yoxdur. Hazırda yenə də şişib. Amma yardırmağa belə gücüm yoxdur. Bədənimə zəhərlənmə verir".

AXCP üzvü əqidə yoldaşlarının onunla maraqlanmamasından gileyləndi: "Sonuncu dəfə xəstəxanada olanda maddi yox, mənəvi dəstək gözlədim. Amma heç kəs itirib-axtarmadı. 11 gün xəstəxanada yatdım. Heç evə gələndən sonra da maraqlanan olmadı. Heç olmasa mənəvi dəstək verərdilər... İndi ya ayaqüstə durmağa, ya da uzanıqlı vəziyyətdə olmağa məcburam. Oturanda yarım saat sanki bədənimdə qan işləmir. Gözlərim günü-gündən zəifləyir. Maddi durumum isə hədsiz ağırdır. Utandığımdan heç kəsə ürək aça bilmirəm. Ümidlə yaşadım ki, bəlkə partiyadan nəsə köməklik olar. AXCP rəhbərliyi vəziyyətimi bilir, amma kömək etmirlər. Analiz versəm, müalicəmə nə qədər xərc lazım olduğunu bilərəm. Amma analiz verməyə belə imkanım yoxdur. Uzunmüddətli müalicəyə ehtiyacım var. Əl və başım sanki mənim deyil. Ailədə yalnız həyat yoldaşım işləyir. Onun da maaşı azdır. Kömək üçün televiziyaya çıxmaq istədim. Amma çox utandım. Çünki dilənçi gözü ilə mənə baxılmasını istəmirəm. Partiyadan Məmməd İbrahimə dedim ki, səhhətimlə bağlı rəhbərlikdə kimə müraciət etməliyəm. Açıq şəkildə dedi ki, heç kimdə imkan yoxdur. Partiyada hamı vəziyyətimi bilir. Görürəm ki, mənə kömək etməyi məsləhət bilmirlər. Ona görə də onlardan qırıldım. Bu qədər laqeydlikləri mənə əlavə dərd və xəstəlikdir. AXCP-dən bilirlər ki, neçə ildir bu xəstəlikdən əziyyət çəkirəm. Partiya üzvlərinə müraciət etməyimin mənası yoxdur. Hamı vəziyyətimin ağırlığını bilir, amma dəstək yoxdur. Həyatım təhlükədədir, hər an ölə bilərəm. Partiya ilə artıq əlaqələrim yoxdur. Heç kəsi kömək etməyə məcbur edə bilmərəm. Səhhətim pisə doğru gedir. Stimul verən kimsə yoxdur. Bütün cəmiyyətdən kömək istəyirəm. Kimsə düşünə bilər ki, bəlkə də düzgün demirəm. Amma yaşayış yerimi, durumumu, səhhətimi görən hər kəs məni anlayacaq. Hazırda əsas analizləri verməyimdir. Kömək edən olsa, həyatım boyu minnətdar olaram".

M.Mehdiyev partiya üçün çəkdiyi əziyyətlərdən də söz açdı: "1988-dən bu günə qədər proseslərdə fəal iştirak etmişəm. Əziyyətimə qiymət verən olmadı. Hər kəs əziyyətimi yaxşı bilir. Şöbənin sədri Hacı Abbaslı da səhhətimə laqeyd qaldı. Əli Kərimliyə müraciət etməmişəm, etmək də fikrim yoxdur. Bilirəm ki, kömək gəlməyəcək. Buna əminəm.







## "Əli Kərimliyə müraciət etmək fikrim yoxdur, bilirəm ki, kömək gəlməyəcək"

Yalnız qədirbilən millətimə müraciət edə bilərəm. Əsl düzgün yolu millətimə müraciətdə görürəm. Müalicəm üçün kömək etmək partiya üçün adi bir şeydir. Çünki "Azadlıq" qəzetinə kömək lazım olanda bir müraciətlə on minlərlə pul yığırlar. Neçə ildir bu vəziyyətdəyəm. Artıq ümidlərim ölüb. Sözümün yerə düşəcəyindən daim çəkinmişəm. İndi partiyaya müraciət etsəm, bilirəm ki, vecinə alan olmayacaq. Heç kəs belə çətin duruma düşməkdən sığortalanmayıb. Abrımı gözləyən adam olmuşam. Kömək istəyəcəm, deyəcəklər ki, imkan yoxdur. Həmişə olduğu kimi, yenə də məhbusları bəhanə gətirəcəklər. Ola bilsin ki, xəstə olduğumdan mənə faydasız insan gözündə baxırlar. İndiyə qədər partiya üçün çox yardımlarım olub. Son 7 ildə edə bilməmişəm. 1988-1990-cı illərdə nə qədər təhlükələr keçmişəm".

AXCP Məclisinin üzvü "Yeni Müsavat" vasitəsilə partiyadan imtina etdiyini açıqladı: "Sizin qəzetiniz vasitəsilə 26 ildir üzvü olduğum partiyadan imtina edirəm. Bundan sonra bilin ki, AXCP-də daha yoxam. Xəstə halımla belə, daim aksiyalarda öndə oldum. Sağlam insanlar meydana çıxmağa cəsarət etməyəndə, mən meydanda idim. Amma nəticəsi olmadı. Bunlar insan talelərini hərraca çıxarırlar. Əgər mənə laqeydlik varsa, orada nə işim? Sonuncu dəfə xəstəxanada olanda gözüm qapıda idi. İstəsələr gələ bilərdilər. Heç olmasa, Nərimanov təşkilatının üzvlərini gözlədim. Ümid etdim ki, gələcəklər, məni tək qoymayacaqlar. Maddi yox, mənəvi dəstək istəyirdim. Çünki borc-xərclə əməliyyat olunmuşdum. Bu dəstəyi görmədim. Bundan sonra siz deyin, necə müraciət edim? İnsanlar gəlmirlər, məni yox sayırlar. Ona görə mən də özümü AXCP-də yox sayıram. İstefa oldu-olmadı, mən yoxam. Öz əllərindədir, çıxarsınlar. Heç bir prosesdə bundan sonra iştirak etməyəcəyəm. Ən çətin günlərimdə yanımda olmayan insanlar mənə lazım deyil. Nə etmişəmsə, millətimə görə etdim. Rus tanklarının qabağında hər an mənə güllə dəyə bilərdi. 20 Yanvarda axşam ölümün bir addımlığında oldum. "Şamaxinka"da güllələr başımın üstündən keçirdi. Nə qədər indi AXCP qiymət verməsə də, millətim üçün etdiyimdən içim rahatdır. Mitinqlər başlayanda 25 yaşım var idi. Mən ölənlərdən artıq deyiləm".

Bu yerdə Maarif bəy göz yaşlarına hakim ola bilmədi. Bir qədərdən sonra yenidən sözlərinə davam etdi: "20 Yanvardan sonra ora getmirəm. Şəhidlər Xiyabanına baxmağa cəsarət etmirəm. Çünki o uşaqlar indi hansı yaşda olacaqdılar? Biz yenə günlər görmüşdük. Amma o uşaqlar nə gördülər ki?"

Sonda AXCP-nin Məclis üzvü xalqa müraciət etdi: "Yeni Müsavat"a dəstəyinə görə təşəkkür edirəm. Problemlərimə laqeyd qalmadı. Ən böyük dəstəyi hörmətli Rauf Arifoğludan gözləyirəm. Partiyadan əlimi üzmüşəm. Artıq bu andan etibarən partiyadan çıxıram. Mənə qarşı olan laqeydliyə layiq insan deyiləm. Çünki heç vaxt belə münasibət kimsəyə sərgiləməmişəm. Bu münasibətə görə AXCP-dən rəsmən imtina edirəm. Dövlət orqanlarına müraciət edib kömək istəyirəm. Yeddi ildir əzab çəkirəm. Kimsəyə ağır açmadım. Sonda məcbur oldum. Dediklərimi artıq söylədim. Bir insanın taleyinə biganə qalmayan hər kəsdən imkan daxilində yardım əlini uzatmağını xahiş edirəm. Edilən kömək bu Ramazan ayında ən böyük savabdır".

Qeyd edək ki, şəklini çəkərkən Maarif bəy üzünü utandığından əli ilə örtdü. Çünki qohumlarının qınağına tuş gələcəyindən ehtiyatlanır. Ev şəraitinin geniş çəkilməsinə də imkan vermədi. Amma gördüyümüz mənzərə burada normal insanın yaşayışı üçün şəraiti olmadığını təsdiqləyir...

***P.S.** Sonda yardım etmək istəyən insanlar üçün Maarif Mehdiyevin əlaqə telefonunu təqdim edirik:*

***(070 562 18 63)***

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 151 (6179) 13 iyul 2015

# "Türkiyənin yeni hökuməti Suriya hökuməti ilə birlikdə..."

## Dövlət Baxçalının müavinindən hadisə kimi müsahibə; Atilla Kaya: "MHP təkrar seçkilərə hazırdır..."

**Türkiyədə hökumət qurulması istiqamətində proseslər artıq rəsmən başlayıb. Seçkilərdən dərhal sonra AKP-nin koalisiya ortağı olaraq MHP ilə birgə hökumət quracağı ehtimalları ortaya atılsa da, sonradan məlum oldu ki, milliyyətçilərin AKP-yə ciddi şərtləri var. Türkiyə mətbuatının yazdığına görə isə bu şərtlərdə koalisiyanın qurulması hardasa mümkünsüzdür.**

Amma siyasət həm də mümkün olmayanların reallaşdırılması sənətidir. Bu mənada "qapıların tam qapandığını" da düşünmək sadəlövhlük olardı. Ona görə də qarşıdakı 45 gün ərzində davam edəcək koalisiya çalışmalarında əsas tərəflərin birinin MHP olacağı sözsüzdür.

Ankarada olarkən, Türkiyə milliyyətçilərinin paytaxtdakı mərkəzi qərargahlarına da baş çəkdik. Azərbaycana ən yaxın, ən doğma olan bu təşkilatın sədr müavini, millət vəkili Atilla Kaya ilə söhbətləşmək imkanımız da oldu. Məhdud zamanın verdiyi imkanlar çərçivəsində bir sıra mövzularda danışdıq. Həmin söhbətin mətbu versiyasını da oxucularımızın diqqətinə təqdim edirik:

***- MHP sədri Dövlət Baxçalının yerli mediaya verdiyi müsahibədən sonra Türkiyə mediası MHP-nin AKP ilə "koalisiya qapılarını qapatdığını" yazır. Doğrudanmı, koalisiya imkanları yoxdur artıq?***

- İyunun 7-də Türkiyədə parlament seçkiləri oldu. Təbii ki, seçkilərə gedən partiyaların da vətəndaşlara seçki vədləri, yəni iqtidar olacaqları halda nələri edəcəkləri ilə bağlı vədləri oldu. MHP də 7 iyun seçkilərində Türk xalqının qarşısına bir sıra vədlərin olduğu seçki bəyannaməsi ilə çıxdı. Bu bəyannamədə ön planada verilən bir neçə xüsusat vardı. Yəni bir sıra iqtisadi və sosial vədlərlə yanaşı, Türkiyənin 13 illik AKP iqtidarı dönəmində ölkədə ədliyyə, hüquq sistemində, ictimai asayişin yaranmasında, xarici siyasətdə və sairədə yol verilmiş səhvləri düzəltmək kimi vədlər də vardı.

Əsas vədlər bunlar idi:

1. Türkiyədə 4 nazirin istefası ilə nəticələnən "17-25 dekabr" adlandırdığımız korrupsiya və rüşvət davaları. MHP sədri və namizədlərin hər biri bütün seçki mitinqlərində bəyan etdilər ki, iqtidara gələcəyimiz təqdirdə bu "17-15 dekabr" hadisələri ilə üzə çıxan korrupsiya və rüşvət iddialarının müstəqil məhkəmə vasitəsi ilə hesabını tələb edəcəyik; 2. MHP PKK-nı Türkiyədə və dünyada təsirli bir vəziyyətə gətirən, PKK ilə danışıqlar masasına oturmaqla onu legitimləşdirən - hətta bu günlərdə ABŞ prezidenti PKK və onun Suriya qolu YPG-ni müttəfiqləri adladırdı - AKP-nin "çözüm sürəci" dediyi prosesi dayandıracağını millətə vəd etdi. 3. Konstitusiyanın verdiyi səlahiyyətlərdən kənara çıxan, çıxışları və fəaliyyətləri ilə cəmiyyəti qütbləşdirən prezidenti də konstitusiyanın verdiyi səlahiyyətlər çərçivəsinə qaytarmaq vədini verdi. Və bu vədlərin qarşılığında millətdən səs aldı. Dolayısı ilə seçkilərin səhəri günü MHP liderinin söylədiyinin mənası odur ki, Türkiyədə QHT-lərin, bir sıra partiyaların, böyük medianın, AB, ABŞ-ın, TÜSİAD kimi sənayeçi və iş adamlarının olduğu qurumlar AKP-nin "çözüm sürəci", bizim "xəyanət sürəci" dediyimiz proseslə bağlı müttəfiqdirlər. Eyni zamanda bunun kimi bir sıra mövzularda da fikir ortaqlıqları var. MHP lideri isə açıq şəkildə bəyan etdi ki, əgər siz "çözüm sürəci"ndə ortaqsınızsa, o zaman AKP HDP ilə birgə hökumət qursun və millət də bu prosesin nə olduğunu görsün. Əgər bu mümkün olmursa, o zaman hədəfi daha da böyüdüb AKP-CHP-HDP hökuməti də qurula bilər. Yaxud da bunlardan biri kənardan hökumətə dəstək verə bilər. Çünki "çözüm sürəci" ilə bağlı CHP də AKP ilə, demək olar ki, ortaq mövqedədir. Belə bir vəziyyətdə MHP-yə də ana müxalifət olmaq vəzifəsi düşür.

Ancaq bütün bunlardan bir nəticə alınmasa, MHP-nin millətə seçkilər zamanı vəd etdiyi kimi, Türk millətinin bütünlüyü və birliyi MHP-nin varlıq səbəbi olduğu üçün, MHP-nin iqtidarın "çözüm sürəci"ndən vaz keçəcəyi, eləcə də "17-25 dekabr" prosesinin müstəqil mühakiməsini təmin edəcəyini qəbul edəcəyi və nəhayət, prezident Konstitusiyamızın verdiyi səlahiyyətlər çərçivəsində hərəkət etməsi şərtini qəbul edərsə, o zaman MHP AKP ilə koalisiya danışıqlarında iştirak edə bilər.

Bütün bunların olmayacağı təqdirdə, gediləcək sonuncu variant - zatən qanun da bunu tələb edir - 45 gün ərzində hökumət qurulmayacağı təqdirdə yeni seçkilərə gedilməsidir. Əgər yuxarıda söylədiyim məsələlər alınmasa, MHP mili iradəyə baş vurmağa, yəni seçkilərə getməyə hazırdır. Bizim söylədiyimiz bundan ibarətdir. Əhməd Davudoğlu koalisiya danışıqlarına gələcəyi təqdirdə, başqanımızın da dediyi kimi, bunlar onun özünə də söylənilək. Əgər qarşılıqlı addım atılarsa bir koalisiya ola bilər, əgər bu olmasa, 45 gündən sonra Türkiyə yeni bir seçimə gedər.

***- 3 əsas koalisiya şərtini sadaladınız. Bu şərtlər isə hökumət üçün də ciddi əhəmiyyət kəsb edir. Siyasətdə bir anlaşma, danışıqlara ayaq vermə imkanı hər zaman var. MHP hər zaman bəyan edir ki, Türk xalqının birliyi və bütünlüyü naminə hər şeyə hazırdır. Proseslərin çıxmaza doğru getməsi halında MHP-nin sadaladığınız şərtlərin hansısa birindən geri çəkilməsi, uzlaşmaya addım atması mümkündürmü?***

- "Çözüm sürəci" dediyimiz məsələdə geri çəkilməmiz mümkün deyil. Zatən bu prosesin də PKK-nın siyasi təşkilatı adlandırdığımız partiyanın işinə yaradığı ortaya çıxdı. Türkiyənin cənub-şərq vilayətlərində, demək olar ki, bütün bölgələrdə deputat yerlərini HDP götürdü. AKP o bölgələrdə uduzdu. Yəni dolayısı ilə bu proses AKP-nin özünə də sərf etmir. Eyni zamanda, ölkəmizi bölünməyə götürən prosesdir. Bu məsələdə MHP-nin geri çəkilməsi mümkün deyil.

İkinci məsələ "17-24 dekabr" prosesidir. Bu mövzu çox həssasdır. Təsəvvür edin ki, sabah AKP-MHP hökuməti quruldu və bundan az müddət sonra CHP həmin 4 nazirlə bağlı araşdırma tələbi irəli sürdü. Nə olacaq? MHP-nin deputatları bu nazirlərin istintaqa cəlb olunmasına yox deyəcək? Təbii ki, bu, mümkün deyil, bu özümüzü inkar olardı.

Yəni MHP-nin tələbləri əslində Konstitusiyanın tətbiq olunması deməkdir. Məhkəmə sisteminin iqtidarın təsirindən çıxaraq müstəqil olmasıdır. Müstəqil mühakimə qurulsun, onlar da mühakimə olunsunlar, AKP də bu ittihamlardan qurtulsun. Yəni ümumilikdə bu sadaladığım üç əsas istiqamətdə MHP-nin geri addım atması mümkün deyil.

***- MHP daha əvvəlki seçkilərlə müqayisədə 3 faiz daha artıq səs qazandı. Amma siyasi şərhçilərə görə, növbədənkənar seçkilər Türkiyə üçün ağır olacaq, siyasi təşkilatlar yorğundur və ən mühüm, bir çox partiyalar səs itirə bilər. MHP bu risklərə hazırdırmı?***

- Yuxarıda qeyd etdiyim tələblər MHP ilə yanaşı, həm də ictimaiyyətin tələbləridir. Məsələn, AKP-nin 10 faiz civarında səs itirməsinin əsas səbəbi ölkə prezidentinin konstitusiyanın verdiyi səlahiyyətləri aşaraq, meydan-meydan gəzib AKP-yə səs istəməsi oldu. Biz isə istəyirik ki, prezident konstitusiyanın verdiyi səlahiyyətlərdən kənara çıxmasın. Yəni sabah yeni seçki qərarı olarsa, biz yenidən meydanlarda xalqa bunu deyəcəyik. Bizim daha artıq bir tələbimiz yoxdur, deyirik ki, prezident konstitusiyanın verdiyi səlahiyyətlər çərçivəsində hərəkət etməlidir. Kənara çıxmağa haqqı yoxdur. Korrupsiya varsa, yetimin, dövlətin malı oğurlanıb bir qisim insanlar varlanıbsa, bunların hesabı sorulmalıdır. Biz millətə bunu deyəcəyik. Yaxud da gördüyünüz kimi, ölkəmiz bir bölünmə nöqtəsindədir. PKK bəzi bölgələrdə demək olar ki, öz hakimiyyətini qurub. Bunlara "eyvallah" deyə bilmərik. Bütün bunları gözə alıb MHP-nin ehtimal olunan yeni seçimlərə hazır olduğunu deyə bilərəm.

***- Bir məqama vurğu elədiniz. Bu gün İraqın şimalında kürd administrasiyası formalaşıb, ötən il isə Suriyanın şimalında kürd kantonları muxtariyyət elan etdilər. Və ABŞ hökuməti də bəyan etdi ki, bölgədə kürdlərlə yaxından əməkdaşlıq edir. Hətta bu projenin İraq neftinin Aralıq dənizinə çıxarılmasını nəzərdə tutduğu qeyd olundu. AKP hökuməti isə buna qarşı olaraq Suriyanın şimalına ordu yeridilməsi planını irəli sürdü. Bu mövzuda MHP-nin mövqeyi necədir? Suriyanın şimalında kürdlərin neytrallaşdırılması üçün nə təklif edirsiniz?***

- Bu mövzuda onu deyə bilərəm ki, AKP-nin xarici siyasəti iflas oldu. "Strateji dərinlik" adı ilə başlayan, "qonşularla sıfır problem" adı ilə davam edən, bir dönəm Suriya ilə ortaq nazirlər komitəsi qurmaq həddinə gələn xarici siyasətdən bu gün haraya gəlib çıxdığımız ortadadır. Türkiyənin milli birliyi təhlükəsizliyini, bütövlüyünü təhdid edən bir nöqtəyə gəlib çatmışıq. Dolayısı ilə AKP-nin xarici siyasəti iflas edib. Hazırda Suriya və İraqdakı proseslərə baxdığımızda, bölgədə bir oyunun addım-addım həyata keçdiyini görürük. Nədir bu oyun? Bir yəhudi İsrail var. Qafqazda isə bir Ermənistan var. Ermənistan ikinci bir İsrail kimi o bölgədə işləri aparır. İndi isə müsəlman ölkələrinin - Türkiyə, İran, İraq və Suriyanın arasında bir "müsəlman israil" yaradılması planı var. Oyun bundan ibarətdir. Baxırıq ki, bu plan addım-addım həyata keçirilir. İŞİD ötən il İraqın ikinci böyük şəhəri olan Mosulu ələ keçirdi, ancaq heç kimin səsi çıxmadı. Lakin nə zaman ki, İŞİD Ərbilə doğru, yəni İraqın şimalındakı kürd bölgəsinin mərkəzinə hücum etdi, o zaman Amerika İŞİD-i bombalamağa başladı. İŞİD İraqda türkmən qəsəbəsi Telaferi ələ keçirdi, şiə türkmənlər Bəsrəyə qədər dağıldı, digərləri isə başqa bölgələrdə pərişan halda qaldı. Yəni belə bir proses davam edir: İŞİD bir bölgəni ələ keçirir və orda xüsusən də türkmənlər və bir qisim ərəblərə qarşı etnik təmizləmə həyata keçirir. Ondan sonra isə Amerika oraları bombalayır və ardınca PKK-nın Suriya qolu olan YPG oralara hücum edərək ələ keçirir. Kobanidə, Tel Abyadda belə oldu və proses bu cür davam edir. İndi isə proseslər Afrin deyilən 3-cü kürd kantonunda davam edir. Bu üçünü birləşdirib bir koridor yaratmağa çalışırlar. O bölgədəki ərəb və türkmənlərə qarşı bir etnik təmizləmə siyasəti həyata keçirilir.

Yəni bu gün Türkiyənin etməli olduğu bu yanlış Suriya siyasətindən imtina etməkdir. Bu saatdan sonra isə bunu indiki hökumət həyata keçirə bilməz. Suriyanın hökuməti ilə birlikdə bu siyasi oyunlara qarşı fəaliyyət göstərmək lazımdır. Çünki bu gün İraqın, Suriyanın bölünməsi sabah Türkiyə və İranın bölünməsi anlamına gəlir. Ona görə də bu bölgə ölkələri - Türkiyə, İran, İraq, Suriya bir araya gəlməklə həm İŞD deyilən qruplaşmaya qarşı, həm də bu ölkələrin bölünməməsi üçün əməkdaşlıq etməlidir. Türkiyə də bütün gücü və imkanlarından istifadə etməklə - burda çox diqqətli olmaq lazımdır - ölkəmizi bir bataqlığa soxmadan, Türkiyə təsirli yayındırma gücündən istifadə edərək - Türkiyənin belə bir gücü var - Suriyaya ordu çıxarmadan belə, 20-30 km dərinlikləri belə havadan və qurudan atəş altında saxlamaqla hərbi fəaliyyətlərin qarşısını ala bilər. Ona görə də Türkiyənin bu məsələdə qərarlı bir siyasət tətbiq etməsi lazımdır. Digər tərəfdən də, yeni hökumət Suriya ilə əlaqələrini bərpa etməlidir.

***- Bu arada qeyd etdiyiniz kimi, hazırda ən ağır durumda olan toplumlardan biri də İraq türkmənləridir. Bu mövzu Azərbaycanda da narahatlıqla qarşılanır. Böyük bir xalqın taleyi necə olacaq? MHP-nin türkmənlərə yardımla bağlı hansı təklifləri var?***

- Mətbuatda dünən də elanlar vardı. Bizim ictimai təşkilatlar, xüsusən də Ülkü Ocaqları kampaniyalar təşkil etməklə evlərindən didərgin salınmış türkmənlərin həm Türkiyəyə gələnlərinə, həm də İraqda qalanlarına müxtəlif növ yardımlar - yemək, geyim və sair - toplayıb göndərir. Eyni zamanda bizim oradakı türkmən məsullarla görüşlərimiz, danışıqlarımız olur, onların bizə bildirdikləri sıxıntılarını biz də müxtəlif kanallarla hökumətə çatdırırıq. Ancaq ümumilikdə bu problemlərin kökündən həll olunması üçün Türkiyənin xarici siyasətini yenidən gözdən keçirib, Ərdoğanın şəxsi istəklərinin, ideoloji baxışını, təmin edilməsinə yönəlmiş xarici siyasət anlayışından, Türkiyənin maraqlarını əsas alan ənənəvi xarici siyasət anlayışına geri dönməsi lazımdır.

❑ **Kənan RÖVŞƏNOĞLU, Ankara**



**"Bir yəhudi İsrail var. Qafqazda isə bir Ermənistan... Ermənistan o bölgədə işləri ikinci bir İsrail kimi aparır. İndi isə müsəlman ölkələrinin - Türkiyə, İran, İraq və Suriyanın arasında bir "müsəlman İsrail" yaradılması planı var. Oyun bundan ibarətdir"**

YENİ MÜSAVAT
N 151 (6179) 13 iyul 2015



# Dalaşanda kovboylar kimi dalaşmalı

Samir SARI

**Dünən Türkiyə telekanallarının ikisində bir ibrətamiz süjet izlədim, maraqlı gəldi, ağlım öz ölkəmizə qayıtdı, müqayisə apardım, gördüm ki, yox, əcnəbilərə baxanda biz heç düz-əməlli dalaşa da bilmirik.**

Videosüjetdə Amerikanın cənub ştatında, gərək ki, Teksasda (Texas) açıq havada keçirilən rəqs festivalında qız üstündə düşən davadan bəhs olunurdu.

"Mədəni ölkələrdə hər saat dava düşmür, xüsusilə də qız üstə" deməyin, xəbəri hazırlayanlar əmin edirdilər ki, dava qız üstə düşüb. Ağlınız şimal ölkələrinə və ya bir yanı cənubda, bir yanı şimalda olan böyük ölkələrin şimal əyalətlərinə, onların soyuqqanlı sakinlərinə getməsin, isti bölgələrdə qız üstə dava düşməsi adi haldır. İsti ölkələrdə gənclər dəliqanlı olurlar. Məsələn, ispanlar da, italyanlar da bu məsələdə eynən özümüz kimidirlər, qırmızı paltar görəndə buğaya dönürlər.

Teksasdakı rəqs festivalında dava qırmızı mini ətək geymiş qızların üstündə düşmüşdü. Ta demədilər, haqq-hesab necə olub, kim kimin sevgilisinə "civi" deyib, hansı kovboy hansı beybini müştəri gözüylə qıyqacı süzüb, eləcə süjetdə bir-birini yumruqlayan gənc kişilər görünürdü. Mini ətək geymiş qızlar da arada qalmışdı, "oh, may qad" deyə-deyə dalaşanları ayırmağa çalışırdılar, yaylıqları da yox idi ki, igidlərin ayağının altına atıb qanın qabağını alsınlar.

Ən maraqlısı o idi ki, böyük meydanın irəlisində hamı öz işindəydi, heç musiqi də ara vermirdi, rəqs edənlər bir az geridə yeddi-səkkiz kişinin Rokkiyə dönüb yumruqlaşmasına fikir vermirdi. Arada iki nəfər cantaraq adam kənardan müdaxilə edərək dalaşanları ayırmaq istədi, ancaq özləri də bir-iki karlı yumruq yeyəndən sonra davaya qarışdılar, qabaqlarına keçənə yumruq tutuzdurub yerə sərdilər.

Nəhayət ki, dava səngidi və musiqili meydanın irəlisində olan rəqs büsatı dava gedən yerdə də bərpa olundu, dalaşan tərəflər heç nə olmamış kimi qol götürüb oynamağa başladılar.

Bəs burda ibrətamiz olan nədir? İbrətamiz olan odur ki, o qədər qovğa-mərəkəyə baxmayaraq, dalaşanlardan heç biri əlini cibinə atıb bıçaq, tapança çıxarmadı, ortalıqda qan gölməçəsi əmələ gətirmədi, hadisə yerinə polis və təcili yardım briqadaları gəlmədi, dalaşanları seçərək, yarısını xəstəxanaya, yarısını təcridxanaya aparmadılar. Eləcə, tərəflər adam balası kimi, mədəni şəkildə yumruqlaşıb ayrıldılar.

Məlum olduğu kimi, bizdə də rəqslər olan musiqili meydançalarda belə toqquşmalar tez-tez baş verir. Elə olur ki, özünü apara bilməyən erkəklərdən birinin nəzərinə ya sözlə çatdırırlar, ya da qulağının dibinə yüngül bir şillə qoyurlar ki, özünü düz apar, burada yiyəsiz adam yoxdur. Adam səhvini başa düşüb, üzr istəyib kənara çəkilməkdənsə doğma məhəlləsinə, qohum-əqrəbasının üstünə əlavə kömək dalınca qaçır (ya da zəng edib çağırır), onlar da dəstə bağlayır, bıçaq, dəyənək, beşbarmaq, velosiped zənciri götürərək qisas almağa gəlirlər. Nəticədə bir qədər sonra hadisə yerinə hüquq-mühafizə orqanları, məhkəmə-tibb ekspertləri, təcili yardım briqadaları cəlb olunur. Daha sonra müalicə həkimləri telekamera önündə "bədənin müxtəlif nahiyələrinin kəsilmiş-deşilmiş, əzilmiş-dağılmış, cırılmış-cızılmış xəsarətləri ilə klinikaya gələn yaralılar"dan danışır, polis kapitanı isə yaxalanmış şübhəli şəxslərdən və hadisə ilə bağlı tərəflərindən araşdırma aparıldığını deyir. İkitərəfli sağım proseduru başlanır. Molla, mürdəşir də o tərəfdə oturub öz ruzilərini gözləyir.

Halbuki Teksasdakı kimi də dalaşmaq olar. Rokki kimi. Eləcə yumruqlarla. Söyüşmədən. Təpikləşmədən. Əlavə döyüş vasitələrinə əl atmadan. Rəqibini öldürmək istəmədən.

Bu, hər gün evdən çıxarkən, hətta toya gedərkən cibinə bıçaq qoyan minlərlə gəncin olduğu ölkədə aktual məsələdir.

Bilirəm, durub bu əsəbi insanlara "hər şeydən ötrü dalaşmayın, səbrli olun" deyə məsləhət verməyin mənası yoxdur, onsuz da qulaq asmayacaqlar. Ona görə də yeni məsləhət bundan ibarətdir: Dalaşırsınızsa, Teksasdakı kimi, kovboylar kimi dalaşın, yumruqlaşın, aralaşın. Ta kimin yumruğu bir az bərk dəyib, kim daha çevik tərpənib, burası təfərrüatdır. Əsas məsələ odur ki, hadisə yerinə xüsusi maşınlarda briqadalar gəlməsin.

# Manatın ucuzlaşması riski artır

## Ekspert: "Ölkədə iqtisadi qanunlar işləmir, banklar məmurlarındır, rəqabətli mühit yoxdur..."

**Mərkəzi Bankın İdarə Heyətinin iyulun 13-dən uçot dərəcəsinin 3,5 faizdən 3 faizə endirilməsi barədə qərarı ekspertlər tərəfindən müxtəlif cür qiymətləndirilir. Ekspert Vüqar Bayramovun sözlərinə görə, bunu banklara jest kimi də qiymətləndirmək olar:**




"Mərkəzi Bank uçot stavkasını endirdi. Bəs uçot dərəcəsinin 3,5 faizdən 3 faizə endirilməsi nəyi dəyişəcək? Əvvəla, sözügedən bankın istehlak kreditlərində komisyon haqlarının məhdudlaşdırılması ilə bağlı ötən həftəki addımından sonra faizlərin mərhələli azalacağı istisna edilmirdi. Komisyon haqlarının azaldılmasının banklarda kredit faizlərini artıracağı ilə bağlı fikirlərin olmasına rəğmən o zaman da qeyd etdiyimiz kimi, bu addım faizlərin tənzimlənməsinə hesablanmışdı. Elə "retail bankçılıqla" məşğul olan bir neçə bankın istehlak kreditləri üzrə faiz dərəcələrini artırdıqdan qısa müddət sonra əvvəlki səviyyəsinə qaytarması da məhz bundan xəbər verirdi. Bu baxımdan, Mərkəzi Bankın uçot stavkasının azaldılması ilə bağlı qərarını məhz məhdudlaşdırılan komisyon haqlarının sonra banklara jest kimi də dəyərləndirilə bilər".

Ekspertin sözlərinə görə, uçot dərəcəsinin aşağı salınması kommersiya banklarına daha aşağı faizlə mərkəzləşdirilmiş kreditlərdən istifadə imkanı verəcək: "Bu isə xeyli ucuz vəsaitlər cəlb edən bankların daha aşağı faizli kredit təklif etməsinə gətirib çıxara bilər. Mərkəzi Bankın açıqlamasında bu sahədə ən mühüm fəaliyyət istiqamətlərindən biri bank xidmətlərinin ucuzlaşması, xüsusilə faiz dərəcələrinin enməsinin təşviq olunmasının xüsusi qeyd edilməsi də məhz bundan xəbər verir. Təbii ki, uçot stavkasının endirilməsindən sonra Mərkəzi Bank bütün kommersiya banklarının sözügedən maliyyələşmədən istifadə imkanlarının genişləndirilməsinə çalışmalıdır. Bu baxımdan, uçot dərəcələrinin endirilməsinin bank faizlərinin aşağı salınması üçün iqtisadi və psixoloji əsas yaradacağı istisna edilmir. Üçüncüsü, son iki ayda xarici valyutalara təklifin azalması və Mərkəzi Bankın valyuta ehtiyatlarında müşahidə edilən artım uçot stavkasının endirilməsini mümkün etməklə yanaşı, artıq baş bankın bazara müdaxilə rıçaqlarının artdığını göstərir. Yeni maliyyə mənbələrindən vəsait cəlb edən Mərkəzi Bank intervensiya xərclərinin tənzimlənməsi fonunda məzənnə siyasətindən artıq faiz siyasətinə keçid edir. Bu isə gündəliyi milli valyutanın məzənnəsi məsələsi ilə uzun müddət zəbt edilən Mərkəzi Bankın kredit faizlərinin endirilməsini yenidən öz egendasına daxil etmək istəyini göstərir. Dördüncüsü, uçot stavkasının endirilməsinin bazara psixoloji təsirləri olacaq. Bu eyni zamanda kredit faizlərinin aşağı salınacağı ilə bağlı mesaj kimi də qiymətləndirilə bilər. Beşincisi, 2015-ci ilin dövlət büdcəsi haqqında qanuna əsasən hər altı aydan bir dövlət başçısına kredit faizləri ilə bağlı hesabat verən Mərkəzi Bank artıq real azaldılmış faizlər ilə öz hesabatını hazırlamalıdır. Uzun müddət effektiv bank faiz dərəcələri ilə spekulyasiya edən banklar komisyon haqlarının məhdudlaşdırılmasından sonra artıq bazara elan edilən real faizlər ilə daxil olmaq məcburiyyətində qalıblar. Faizlərin real azaldılması isə həmçinin bankların ucuz maliyyə resursları ilə təmin edilməsinin vacibliyi demək idi. Altıncısı, bu qərarından sonra Mərkəzi Bankın bankları real sektoru daha çox maliyyələşdirməyə təşviq etməyə çalışacağı güman edilir. Real sektoru maliyyələşdirməkdə xüsusi maraqlı görsənməyən banklar aşağı uçot dərəcəli mərkəzləşdirilmiş kreditlər ilə bu sektora meyillənə bilərlər. Nəhayət, uçot dərəcəsinin endirilməsi ilə bağlı qərarın kredit bazarına təsirlərinin qiymətləndirilməsi üçün Mərkəzi Bankın daimi monitorinqlər aparıb nəticələri ictimaiyyətlə bölüşməsinə ehtiyac var. Baş bankda bu addımın kredit faizlərinin enməsini sürətləndirməklə investisiyaları stimullaşdırmaq, kiçik və orta biznesin maliyyələşməsinin və əhalinin ipoteka kreditləşməsinin dəyərinin optimallaşmasına monetar zəmin yaratmaq məqsədilə atıldığını bəyan etməsini nəzərə alsaq, deməli müəyyənləşdirilmiş hər bir indikator üzrə monitorinqin aparılmasına ciddi ehtiyac olacaq".

Ekspert Natiq Cəfərli isə qeyd edib ki, bu, manatın ucuzlaşmasına gətirib çıxara bilər: "Azərbaycan dünyada nadir ölkədir ki, Mərkəzi Bankın uçot dərəcəsi ilə real kredit faizləri arasında 6-8 dəfə fərq var. Səbəbi odur ki, ölkədə iqtisadi qanunlar işləmir, banklar məmurlarındır, rəqabətli mühit yoxdur. Mərkəzi Bankın bu qərarı kredit faizlərinə təsir etməyəcək, amma bankların likvidliyə çıxışını artıracaq, manitar sıxlığı yumşaldacaq. Əks təsiri isə likvidliyin artması manatın məzənnəsinə basqı yaradacaq. Sadə dillə desək, manatın ucuzlaşması riski artacaq".

❑ RÖYA




# İki azərbaycanlı 10 nəfərə qarşı - 1 ölü, 4 yaralı...

**Voronejin Sovetski rayon məhkəməsi kafe yaxınlığında kütləvi dava zamanı bir neçə nəfərə bıçaq xəsarəti yetirən, bir nəfərin isə ölümünə səbəb olan Azərbaycan vətəndaşları barəsində ittiham hökmü çıxarıb. Bu barədə vilayət prokurorluğunun mətbuat xidmətinin məlumatında bildirilir.**

Müəyyən edilib ki, 2013-cü ilin dekabrında gecə yarısından sonra Rəşad İsmayılov və Azər Nəcəfov öz tanışları ilə "Praqa" kafesinin yaxınlığında durublar. "Bu zaman kafedən 10 nəfərdən ibarət bir dəstə çıxıb, onların arasında sonda dava ilə nəticələnən münaqişə yaranıb. Dava iştirakçılarından biri səhvən İsmayılovun yaxınlıqda dayanan qardaşına zərbə endirib və daha bir dava başlayıb, bura həm İsmayılovun, həm də onu vuranın tanışları qatılıb", - deyə məlumatda bildirilir.

İdarənin məlumatına görə, R.İsmayılov davanın dörd iştirakçısına bıçaq xəsarətləri yetirib, onlardan biri aldığı yaralardan hadisə yerində keçinib. A.Nəcəfov da bıçaqdan istifadə edib və rəqiblərindən birini belindən yaralayıb.

R.İsmayılov Rusiya Federasiyası Cinayət Məcəlləsinin "Qətl" və "İki və daha artıq şəxsin həyatına qəsd", A.Nəcəfov isə "Adam öldürməyə cəhd" maddələri üzrə müqəssir biliniblər. Məhkəmənin hökmü ilə R.İsmayılov 9 il, A.Nəcəfov isə 2,5 il müddətinə azadlıqdan məhrum edilib. Hər iki azərbaycanlı cəzalarını ciddi rejimli islah-əmək müəssisəsində çəkəcəklər.



# YAP-ın "üç qızıl dairə"si uğrunda mübarizə

**Yaxın iki həftədə hakim partiya namizədlər siyahısını prezidentə təqdim etməlidir; siyahıda "100 faiz" adı olanlar belə rahat deyillər və onlar avqustun ilk həftəsinədək gözləməli olacaqlar; rektorlar niyə yenidən deputat olmaq istəyir...**

**Yeni Azərbaycan Partiyası parlament seçkilərində namizədlərinin müəyyənləşdirilməsində ciddi problemlə üzləşib. Bu barədə redaksiyamıza məlumat verən mənbənin sözlərinə görə, bu ayın sonunadək siyahı tam hazırlanıb prezidentə təqdim edilməlidir. Qaynağın iddiasına görə, gözlənilənlərin əksinə olaraq, seçki siyahısında köklü dəyişiklik etmək mümkün olmur. Deputat fəaliyyəti ilə bağlı partiyadakı xüsusi araşdırma nəticəsində yalnız 20 nəfərədək adamın siyahıdan kənarlaşdırılması mümkün olur ki, bu da hansısa xidmətlərinə görə "keçici mandat" alanlardır. Üstəlik, 2010-cu il seçkisində mandatsız qalan YAP-çılır da indi mandat üçün çarpışır. Siyahıda 100 faiz adı olanlar belə rahat deyillər və onlar da avqustun ilk həftəsinədək gözləməli olacaqlar.**

Əsas müzakirə mövzularından olan YAP-ın Seçki Qərargahına kimin rəhbərlik etməsi isə artıq həllini tapıb. YAP bu seçkiyə də baş nazirin müavini, hakim partiyanın icra katibi Əli Əhmədovun rəhbərliyi ilə gedəcək. Hələ bir müddət əvvəl belə xəbərlər vardı ki, prezident seçkilərindən sonra Əli Əhmədovun baş nazirin müavini postuna, onun partiyadakı daha bir müavini Mübariz Qurbanlının isə Dini İşlər üzrə Dövlət Komitəsinə sədr təyin edilməsi YAP daxilində gərginliyi artırıb. Belə ki partiyada Ə.Əhmədovla münasibətləri gərgin olan qrup, eləcə də bəzi məmur-oliqarxlar icra katibinin bu dəfə seçkiyə nəzarət etməsini arzulamırdılar. Amma Ə.Əhmədovun YAP-dakı təşkilatçılıq bacarığı və prezidentin inandığı fiqur olması səbəbindən bu dəfə də ona etimad göstərilib.

Seçki Qərargahına rəhbərlik hələ işin yarısıdır və əsas namizədlərin müəyyənləşməsidir ki, bu məsələdə ciddi problem yarandığını yazının girişində qeyd etdik. Qaynağımızın məlumatına görə, ötən həftə YAP icra katibinin müavini Siyavuş Novruzovun Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın namizədliyi ilə bağlı dediklərinin təkzibi də siyahı ilə bağlı problemin olduğunu göstərib.

YAP-da əsas dartışma yaradan bir neçə boşalmış dairədən kimin namizəd olacağıdır. Əsas mübarizə "qızıl üçlük"- Əli Əhmədovun, Mübariz Qurbanlının və Cəlal Əliyevin dairəsi uğrunda gedir. Xatırladaq ki, Ə.Əhmədov Nərimanov birinci seçki dairəsindən, M.Qurbanlı 100 saylı Şəmkir - Daşkəsən, C.Əliyev isə 62 saylı Saatlı seçki dairəsindən son on beş ildə Milli Məclisin deputatı seçiliblər. Qeyd edək ki, iyunun 30-da C.Əliyevin 87 yaşı tamam olub.

Bu prestijli dairələrdən kimlərin namizəd olacağı barədə də son qərar verilməyib.

Dələduzluğa görə həbs edilən və mandatından imtina edən Gülər Əhmədovanın (Xətai seçki dairəsi), avtomobil qəzasında dünyasını dəyişən Hikmət Atayevin (Zaqatala), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Parlament Assambleyasının baş katibi seçilən Asəf Hacıyevin (Nizami ikinci (Gəncə) seçki dairəsi) yerinə namizəd olmaq uğrunda da mövqe "döyüşləri" gedir.

Daha bir sensasion xəbər 2005 və 2010-cu ildə 37 saylı Nizami birinci (Gəncə) seçki dairəsindən deputat mandatı almış Aydın Abbasovla bağlıdır. YAP üzvü olmasa da, son on ildə mandat alan Aydın Abbasovun dairəsi də artıq boşalmış hesab edilə bilər. Maraqlıdır ki, Aydın Abbasova seçkiyə qatılmamaq tövsiyəsi edilməyib. Amma açıq şəkildə bildirilib ki, bu dəfə nə YAP-ın, nə hakimiyyətin dəstəyini gözləməsin.

Onun dairəsində də namizəd ola biləcək iki vəzifəli şəxsin oğlunun adı çəkilir. Bunlar Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov və Gəncənin icra başçısı Elmar Vəliyevin oğlu Elmir Vəliyevdir. Gəncə Ziya Məmmədovun ikinci vətəni hesab olunur və uzun müddət burada işləyib. Hakimiyyətdə güclü arxaları olan icra başçısı isə "Gəncə Avropa Gənclər paytaxtı 2016" İctimai Birliyinin sədri olan oğlunu bu dairədən deputat etmək iddiasındadır. Amma hələ bundan öncə də belə xəbərlər vardı ki, icra başçısına deyilib ki, Milli Məclisdə işləyən oğlu hələ çox gəncdir və təcrübə yığsa yaxşıdır. Nazirin bir qardaşının deputat olduğunu və Məmmədovların son vaxtlar adının mənfi planda daha çox hallanmasını nəzərə alsaq, onlara bağlı son qərarın necə olacağını indidən demək çətindir. Amma bir şey dəqiqdir ki, iqtidar parlamentdə bir ailədən iki nəfərin deputat olmasına heç vaxt isti baxmayıb. Mümkündür ki, nazirin qardaşını bu dəfə A.Məmmədov əvəzləsin. Məlumata görə, nazir nədənsə, oğlunun deputat toxunulmazlığı üçün çox çalışır...

Seçkilərlə bağlı ən mühüm xəbər rektorların yenidən namizəd olacağıdır. Xəbərlərə görə, hakimiyyət bu məsələ üzərində çox düşünsə də, sonda onların iştirakını əngəlləməməyə qərar verib. Buna səbəb rektorların hər birinin "on minlərlə tələbənin səsinin parlamentdə təmsilçiliyi"dir. Onlar hakimiyyəti inandırıblar ki, seçki prosesindən kənarlaşdırılmaları ali məktəblərdə "siyasi mühitə" mənfi təsir edə bilər.

Tam həqiqətləri bilmək üçün isə daha iki həftə gözləyək...

❑ **"Yeni Müsavat"**

# Müxalifəti necə dəyişdirməli...

**Azad Demokratlar Partiyasının (AzDP) sədri Sülhəddin Əkbərin "Yeni Müsavat"ın ötən sayında dərc olunan müsahibəsində səsləndirdiyi bəzi fikirlər geniş müzakirələrə səbəb olub. AzDP sədri bildirib ki, ölkədə yeni siyasi şərait yaranmayınca, yeni siyasi müxalifət ortaya çıxmayınca, müxalifət "formatlanmayınca", indiki vəziyyət davam edəcək. Bir növ partiya sədri müxalifətin dəyişməsinə ehtiyac olduğunu diqqətə çatdırıb.**

AzDP sədrinin təzadlı fikirləri ilə bağlı ekspertlərin mövqeyini aldıq.

"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev S.Əkbərin fikirlərini doğru hesab etmir: "İndiki müxalifətin yaranması Sovetlər Birliyi dağılarkən baş verib. Nəticədə ortalığa indiki qüvvələr çıxdı. Demək sabah hansısa qüvvənin ortalığa çıxması üçün hansı təkan olmalıdır? O necə ola bilər ki, kiminsə gəlməsi üçün kimsə getməlidir?! Əslinə qalsa, kimin getməli olduğunu bilirik. O zaman kimlər gəlməlidir? Onu kim yaradır? Mən, yoxsa Sülhəddin Əkbər? Onu şərait yaradır. Hökumət də özünə sərf edən təşkilatlar yaratmağa cəhd etdi. Məsələn, Asim Mollazadə, Fəzail Ağamalı və başqa qurumlar. Birdən-birə NİDA-çılar yarandı. Belə zərurətlər olub. Kiminsə getməyi, gəlməyi hansısa qərarla olmur. Allah fərman verir, məsələ bitir. Kimlə bağlı nə zaman qərar verəcək, Allah özü bilir. Ona görə də boş-boş söhbətləri qurtarmaq lazımdır ki, kimsə getməlidir, kiminsə gəlməyi üçün. Bu barədə yaxın günlərdə bir cavan oğlanla söhbət etdim. Deyirəm ki, gəlmək istəyirsiniz, gəlin. Cəmiyyəti özünüzə tərəf çəkib, rəğbət qazanmaq lazımdır. Kim mane olur? İsa Qəmbər, Əli Kərimli, yaxud başqaları durub deməli deyil ki, mən kreslomu verirəm, gəlin əyləşin? Bununla vəziyyət dəyişəcək? Xoşunuz gəlmir, gedin başqa qurum yaradın. Niyə yaratmırsınız? Bu məsələlərə belə baxmaq doğru deyil. Kimsə belə süni fikirlər yaradır. Bütün sahələrdə belə vəziyyət var. Kimsə nəsə yaratmaq istəsə, yarada bilər. Amma o demək deyil ki, uğur qazanacaq. Biz belə nümunələri çox görmüşük".



**Mehman Əliyev:**
"Xoşunuz gəlmir, gedin başqa qurum yaradın"



**Natiq Miri:**
"Cəmiyyətdə açılım olmayınca, hər hansı şəxsin bir çubuqla, cadugərliklə nəticə qazanması, önə çıxması mümkün deyil"

Mehman Əliyev Azərbaycanda dəyişəcək qüvvənin iqtidar olduğunu bildirdi: "İqtidar dövləti krizisə salıb. Azərbaycan böhran vəziyyətindədir. Ölkədə yaranmış duruma müxalifət cavabdehdir? Hakimiyyətin məsuliyyətini kənara qoyuruq, müxalifətdən danışırıq".

Politoloq Natiq Miri isə "Turan" rəhbərindən fərqli düşünür. O hesab edir ki, cəmiyyət yenilənməlidir: "Cəmiyyət açılmalıdır. Çox təəssüf ki, hələ də cəmiyyətin açılmasına imkan verilmir. Bunların fonunda Azərbaycanda demokratik institutların inkişafına məhdudiyyətlər yaradılır. Bu gün jurnalist, vətəndaş cəmiyyətinin üzvlərinin həbs olunması bunun bariz nümunəsidir. Cəmiyyətdə açılım olmayınca, hər hansı bir şəxsin bir çubuqla, cadugərliklə nəticə qazanması, önə çıxması mümkün deyil. Bu sistemin özünün bir məsələsidir. Cəmiyyət özünü mütləq mənada yeniləməlidir. Bunların fonunda yeni siyasi iradəsi olan müxalif qurumlar, iddialar ortaya çıxacaq. Bunlar olacağı təqdirdə, yeni siyasi qüvvələrin önə çıxması mümkündür. Yeni proseslər də bu zaman yaranacaq. Bu qüvvələrin aparıcı elementlərə çevrilmələri də mümkündür. Amma, bu gün bunlar mümkünsüz görünür. Hakimiyyətdə hər hansı bir dəyişiklik yoxdur. Demək olar ki, bütün dəyişikliklərin önü kəsilib. Bu siyasi sistemin tərkib hissəsi olan siyasi partiyalara da aiddir. Hakimiyyətdə olmayan dəyişiklik müxalifətdə də yoxdur. Hətta ana müxalifət partiyası olan, ideoloji cəhətdən ən klassik qurum olan Müsavatın başqanı dəyişdi, ancaq partiyada dəyişən heç nə olmadı. Yenə də köhnə hamam, köhnə tas. Eyni mübarizə üsulları, müəyyən gənclərin müavinliyə gətirilməsi də vəziyyəti dəyişmədi. Olası da deyil. Çünki idarəetmə sistemində hər şey bir-birinə bağlıdır. Mütləq mənada sistem yenilənməlidir. Canlanma olacağı halda yeni qüvvələrin, liderlərin, mübarizə metodlarının ortaya çıxması mümkündür. Nəticədə cəmiyyət aktivləşəcək, hər şey rəngarəng olacaq. Bu da hakimiyyətə ciddi alternativlər yaradacaq. Amma bu gün biz onu müşahidə etmirik. Çünki hakimiyyətdə dəyişiklik, islahat, yenilənmə yoxdur, cəmiyyətdə də dəyişikliklərə imkan vermir".

❑ **Cavanşir ABBASLI**



# Oyunların pozduğu dövlətçilik

Zamin HACI
zaminhaci@gmail.com

**Son günlərdə hakimiyyət nümayəndələrinə "ilişdikləri" üçün azı 2 yol polisi işdən qovulmuşdur. Bunlardan biri Şamaxıda, başqası Bakıda olmuşdur. Şamaxıda Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənovun, Bakıda isə Müdafiə Nazirliyi Baş Qərargah rəisi Nəcməddin Sadıkovun (yeri gəlmişkən, bəzən mətbuat onun soyadını səhvən Sadıqov kimi yazır, bu isə bizə yaraşmaz, gərək Dağıstanın milli qəhrəmanının soyadı düz yazılsın) vergidə yüksək vəzifə tutan oğlunun maşınlarını saxlamaq cəhdləri yol polislərinə baha başa gəlmişdir.**

Əlbəttə, Kərəm müəllimin maşınını saxlamaq istəyən yol polisinin öz oturduğu maşın Kərəm müəllimin əmlakı sayıla bilərdi, necə olmasa adı üstündə - dövlət əmlakıdır. Kərəm müəllim istəsə o polisin maşınını bazara çıxarıb satardı, polis yola "samokatla" çıxardı. Şükür eləsinlər satmayıb. Bu baxımdan, hər bir polis öz yerini bilməyə borcludur.

Eyni hal o biri hadisəyə də aiddir, çünki həmin polis də vergidə işləyən o gəncin yığdığı pullarla yaşayır.

Amma bunlar, necə deyərlər, aysberqin üzdə görünən hissəsidir. Heç kim hadisələrin vaxtına, tezliyinə diqqət eləmir. Halbuki, çox önəmlidir.

Bu polislər qabaqlar niyə belə tez-tez hökumət adamlarına dəyib vəzifə uçurumuna yuvarlanmırdılar? Məncə səbəb sadədir: onların dövlətçilik tərbiyəsinin pozulmasında Avropa Oyunları böyük rol oynamışdır! Çünki bu oyunlar dövründə kimliyindən asılı olmayaraq hər kəsin yol hərəkəti qaydalarına əməl eləməsi tələbi qoyulmuşdu. Nazir balaları oyunların sarı zolağına girmirdilər! Təsəvvür edirsinizmi bu nə deməkdir? İndi işdən atılan yol polisləri də bir növ həmin oyunların inersiyası, ətaləti ilə hərəkət ediblər, sanıblar qanun qarşısında yenə hər kəs bərabərdir. Belə şey olarmı? Bayram bir-iki gün olar, hər gün olsa dəlixana yaranar.

Üstəlik, AzTV və başqa telekanalizasiyalar hər gün oyunların açılış, bağlanış, yağlanış, saxlanış, qaxlamış və sairə adı burda yazılması mümkün olmayan mərasimlərini təzədən translyasiya edirlər, heç bilmək olmur oyunlar bitib, ya yox. Adam çaşır, gəl gör yol polisi olsun... Nəticə də acınacaqlıdır. Hər həftə 2 polis itirsək, dövlətçilik dağılar. Məncə polis nazirliyi bütün əməkdaşları yığıb "Oyunlar bitib, özünüzə gəlin" açıqlamasını verməlidir.

Hərçənd, qabaqdan təzə oyunlar - Formula-1 yarışları gəlir, bu isə yol polisinin canlı qüvvə itkilərini daha artıracaqdır. Yarışın yolda keçirilməsi baxımından. Çünki yarışdan sonra özünü "Şumaxer", "Ayrton Senna", canım sənə desin, "Şimşək Makquin" hesab edən çoxlu nazir balaları ortaya çıxacaqdır. Bunların qabağında durmaq var. Proqnoz edə bilərik ki, gələn ilin yayında - Bakıda Formula-1 yarışından sonra xeyli yol polisi işdən atılacaq. Məndən polislərə məsləhət, həmin vaxt xəstəlik kağızı götürmək lazımdır. Dəqiq vaxtını öyrənib deyərəm.

Söz düşmüşkən, yapistlərin Formula-1 üçün seçdiyi yer də maraqlıdır: Bakının Azadlıq meydanı. Bu, onların millətin azadlıq formulasına münasibətini açıq göstərir. Azadlıq meydanı Azərbaycanın milli azadlıq, müstəqillik hərəkatının simvollarından biridir, yapistlər isə orda Formula-1 üçün 2 qatlı bina, yarış pitstopları (avtomobillərə texniki xidmət, təkər dəyişmə yeri) tikəcəklər. Yarışdan sonra "moyka" açsalar lap yerinə düşər.

Ta azadlıq tarixinə tüpürüb köləlik tarixinin üfürülməsi prosesi başlayıbsa elə Bakıdakı Şəhidlər Xiyabanında da tramplindən tullanma yarışları keçirilsin. Relyef imkan verir. Fəxri Xiyabanda peyntbol yarışları olsun. Kimin nə vecinədir?

Ara yerdə nə olursa yazıq polislərə olur. Heç olmazsa Nəcməddin müəllim Silahlı Qüvvələrə yardım Fondundan həmin polisin uşaqlarına çörək pulu ayırsın. Kişinin ağacını əlindən almısınız, balaları yazıqdır...

# Azərbaycan uğrunda geosiyasi savaş yeni mərhələdə

**"Qoşulmamaq hərəkatı"nın üzvü olan Azərbaycan ötən həftə Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) qoşulmaqla (tərəfdaş statusunda) xarici siyasətində maraqlı bir yeniliyə imza atdı. ABŞ-la Bakının gərgin münasibətləri fonunda və həssas bir dönəmdə reallaşan bu addım siyasi təhlilçilərdə dərhal sual yaratdı ki, doğrudanmı, Bakı balanslı siyasətdə balansı Qərbin deyil, Şərqin - Rusiyanın, Çinin xeyrinə dəyişmək istəyir?**




## Bakının "Şanxay gedişi" - balans dəyişir?

### Çəkişən ABŞ və Rusiya üçün Azərbaycan indi təkcə neft-qazına görə dəyər daşımır; Kremlin "dobro"su ilə ölkənin öz üzünü Asiyaya çevirməsinə Qərbin seyrçi qalmayacağı gözlənilir; ABŞ Dövlət Departamentinin xüsusi elçisinin Bakı səfərinin daha bir pərdəarxası...

Sual həm də ona görə aktualdır ki, xarici siyasət kursunda kardinal dəyişiklik Azərbaycanın sığındığı təhlükəsizlik çətirinin də dəyişməsi deməkdir. İstənilən halda, "Şanxay gedişi" Rusiyanın, konkret olaraq isə Putinin Azərbaycan uğrunda Qərblə, ABŞ-la rəqabətdə taktiki uğuru sayıla, onun aktivinə yazıla bilər.

***

Məhz "Şanxay demarşı"nın ertəsi günü ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi, Rusiyanın "Türk axını" layihəsini əngəlləyən əsas fiqur kimi tanınmış Amos Hokstaynın Bakıya səfər etməsi, səfər çərçivəsində prezident İlham Əliyevlə görüşməsi, görüşdən sonra keçirdiyi brifinqdə isə "ABŞ-ı Azərbaycanla təkcə neft-qaz məsələsi birləşdirmir" söyləməsi maraq doğurur və diqqət çəkir; eyni zamanda, özündə Moskvaya və Bakıya ünvanlı müəyyən çatdırışlar daşıyır.

O da diqqətçəkicidir ki, son olay və gəlişmələr yüksək çinli amerikalı generalların ABŞ-ın milli təhlükəsizliyinə ən böyük təhlükənin məhz Rusiyadan qaynaqlandığı barədə verdikləri bəyanatlar, Moskvanın "1 nömrəli düşmən" elan edilməsi fonunda yaşanır. Məsələn, belə bəyanatla ötən həftə ABŞ-ın Baş Qərargah rəisi vəzifəsinə əsas namizəd, dəniz piyadaları generalı Cozef Danford çıxış edib.

"Əgər siz ABŞ-a real təhlükə kəsb edən ölkədən danışmaq istəyirsinizsə, mən Rusiyanı qeyd eləməliyəm. Əgər siz Moskvanın davranışına nəzər salsanız, bu, narahatlıq doğurur. Rusiya bizim milli təhlükəsizliyimizə ən böyük təhlükədir", - deyə general ABŞ Senatında namizədliyi müzakirə olunarkən qeyd edib.

2-ci təhlükəli ölkə kimi o, Çinin (ŞƏT-in ikinci əsas dövləti), sonra Şimali Koreyanın və İŞİD-in adını çəkib. General həmçinin, Ukraynaya ölümcül silahların verilməsini vacib sayıb. Onun sözlərinə görə, belə hərbi kömək olmadan Ukrayna özünü Rusiya işğalından qoruya bilməz. Ondan az əvvəl isə ABŞ Hərbi-Hava Qüvvələrinin naziri, general Debora Ceyms Rusiya təhlükəsi haqda eyni fikri səsləndirmişdi.

"Rusiyaya qarşı sanksiyalar həmişəlik qala bilər". Bu fikri isə Rusiya rəsmilərindən biri keçən həftə Moskvanın Qərblə münasibətlərinin yaxın perspektivindən danışarkən deyib. Yəni Rusiya Krımı qaytarmayacaq, sanksiyalar rejimi də qalacaq. Bu da o anlama gəlir ki, Rusiya və ABŞ-ın təsir dairəsində olan kiçik ölkələrə, o cümlədən Azərbaycana tərəflərdən birinin münasibətində gərginlik də saxlanacaq, bu ölkələr gec-tez düşərgə seçimi ilə üzləşəcək.

Bu qəbildən açıqlamalar, sözsüz ki, iki fövqəlgücün münasibətlərindəki mövcud atmosferi yaxşı xarakterizə edir...

***

Bu arada Azərbaycanın da daxil olduğu Güney Qafqaz uğrunda Rusiya-Qərb savaşına dəxli olan, lakin ilk baxışda kiçik görünə biləcək daha bir faktı vurğulamaq yerinə düşər. Söhbət iki gün öncə Cənubi Osetiyadakı rus hərbçilərinin Bakı-Supsa kəmərinin bir hissəsini ələ keçirməsindən gedir. Belə ki, Gürcüstanın Tsxinvali bölgəsində Rusiya hərbçiləri işğal xəttini daha 1 kilometr qabağa çəkərək bilavasitə bp-nin boru xəttinə yaxınlaşdırıblar. İndi bu xətt strateji Bakı-Supsa kəmərinin cəmi 50 metrliyindən keçir. Nəzərə alanda ki, Cənubi Osetiyadakı Rusiya qüvvələri işğal xəttində qoyulmuş baryerin 100 metrlik radiusunu "neytral zona" elan ediblər, demək, strateji kəmərin bir hissəsi artıq işğal altında sayıla bilər.

Bu, əslində Bakıya da, Qərbə də xəbərdarlıq mesajıdır ki, fors-major vəziyyətlərdə Moskva istəsə, həm bu kəmərə, həm də Bakı-Tiflis-Ceyhan neft xəttinə, bütövlükdə Qərbin regiondakı strateji maraqlarına və tərəfdaşlarına böyük təhlükə yarada bilər - necə ki, 2008-ci ilin avqustunda Gürcüstana qarşı "5 günlük müharibə" zamanı bunu əyani nümayiş etdirmişdi. Onu da vurğulamağın yeri var ki, vaxtaşırı erməni işğalçı qüvvələrinin komandirləri də boru xətlərinə analoji hədələr səsləndirirlər. Ermənilərsə, adətləri üzrə, öz "dilləri" ilə danışmırlar...

***

Sadalananlara nəzərən, Azərbaycan uğrunda Qərb-Rusiya rəqabəti növbəti, daha sərt mərhələyə adlamış kimi görünür. Bu mərhələnin necə bitəcəyi həm də Bakıdan və onun çevik addımlarından asılı olacaq. ABŞ-Rusiya rəqabətinin sonucu (nəticəsi), söz yox ki, Dağlıq Qarabağ probleminin həll perspektivində də, işğal altındakı digər ərazilərimizin taleyində də ciddi iz buraxa bilər.

Azərbaycanı "nifaq alması" kimi qiymətli edən, qlobal güclərin rəqabətinə sanbal qatan həm də bu məsələdir. Çin-Rusiya geosiyasi cütlüyü, yoxsa ABŞ-Avropa tandemi Qarabağa daha ədalətli tale, daha real və cəlbedici həll modeli vəd elə bilər? Hazırkı mərhələnin ən mühüm özəlliklərindən biri elə budur...

Azərbaycan üçün seçim elə də uzaqda deyil. Bizdən ötrü bu dilemma, qeyd olunduğu kimi, ən əvvəl Qarabağ məsələsinə görə önəm kəsb edir. Yəqin ki, rəsmi Bakı xarici siyasət oriyentirlərinə yerli və xarici amillərin diktəsi ilə düzəlişlər edərkən sonuncu faktoru da ciddiyə alır.

Bu mənada Azərbaycanın ŞƏT-ə qoşulmaq planı ilk növbədə Qarabağ məsələsində Bakının ədalət umduğu, fəqət görmədiyi Qərbə bir siqnaldır ki, öz mövqeyinə yenidən baxsın. Ola bilsin, yeni mərhələdə Rusiya və Çinə bağlanan ümidlər də özünü doğrultmasın, ancaq bu - siyasətdir və siyasətdə vaxtaşırı mümkün olmayan da reallaşır.

❑ **Analitik xidmət**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Dağlıq Qarabağ probleminin həlli istiqamətində hər hansı ciddi irəliləyiş müşahidə olunmasa da, son vaxtlar yeni, həm də bir-birinə ziddiyyət təşkil edən gəlişmələrin şahidiyik.**



**Zahid Oruc:** "Yalnız silahlı yolla münaqişəni həll etməyə çalışmaq beynəlxalq aləmlə döyüşmək deməkdir; çünki bizə siyasi koalisiya yaratmadan hərəkət etmək olmaz"



# ABŞ-ın maliyyə, Rusiyanın silah yardımı ayırdığı işğalçı

## Bakı növbəti dəfə Qarabağ şərtini açıqladı; bölgədə hərbi əməliyyat riskləri artır, lakin...

Məsələ burasındadır ki, Qərb Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttindəki gərginliklərin müharibə fazasına keçə biləcəyindən ehtiyatlanaraq prezidentlərin növbəti - Vaşinqton görüşünə tədarük görür, həmsədrlərin səfəri də buna hesablanıb, ancaq eyni zamanda şimal qonşumuz və həmsədrlərdən biri olan Rusiya işğalçı Ermənistana güzəştli kreditlə 200 milyon dollarlıq silah-sursat satır. Hətta Kremlin İrəvana 500 km-lik məsafəni darmadağın etmək gücündə olan "İsgəndər" raket kompleksini verməklə bağlı prosesin getdiyi barədə xəbərlər yayılıb. Düzdür, Rusiyada dərc olunan "Arsenal Oteçestva" jurnalının baş redaktoru, Rusiya hökuməti hərbi sənaye komissiyası sədri yanında Ekspert Şurasının üzvü Viktor Muraxovski Ermənistan - Azərbaycan qoşunlarının təmas xəttində qüvvələr balansını təmin etmək üçün Rusiyanın İrəvana "İsgəndər" raketləri satacağı barədə erməni KİV-lərinin yazdığı materialların həqiqətə uyğun olmadığını deyib. Lakin hələlik nə Bakı, nə də Moskvanın rəsmi reaksiyası ortada yoxdursa, məsələnin üstündən keçmək olmaz.

Bəzi rus analitikləri isə Ermənistana silah payının göndərilməsini faciə hesab etməyərək Azərbaycanın da növbəti partiya müasir silahlar almaq şansının yarandığını iddia edir. Belə görünür ki, Rusiya əslində bölgəni silah arsenalına çevirmək və iki ölkənin yarışını təşkil etməklə daha çox qazanmaq istəyir. Bu da son nəticədə dəhşətli müharibə perspektivi deməkdir.

***

Bu arada xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanın mövqeyinin bəlli olduğunu deyib. "Dağlıq Qarabağ problemi məsələsində güzəşt yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkün ola bilər" - nazir bildirib. Onu da xatırladıb ki, Dağlıq Qarabağın statusu məsələsi indi həll olunan məsələ deyil. Rəsmi Bakı hesab edir ki, ilk növbədə, hərbçilər hər iki tərəfdən kənara çəkilməli, məcburi köçkünlər öz evlərinə qayıtmalı, yollar açılmalıdır: "Sonra bütün əlaqələri bərpa etməliyik. Bu baxımdan həm də Dağlıq Qarabağ ətrafında olan işğal olunmuş 7 rayondan da erməni hərbçiləri çəkilməlidir. Bundan sonra bütün yolların, kommunikasiyaların açılmasına imkan verəcəyik".

Ancaq Rusiyanın gərginliyi artıra biləcək addımları Ermənistanın konstruktiv mövqe tutacağına şübhələri artırır. Deputat, Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a bildirdi ki, Rusiyanın Ermənistana "İsgəndər" raketlərini satacağı haqqında xəbərlər tamamilə cəfəngiyatdır və bunu dövriyyəyə çıxaranların bir çox avantürist məqsədləri var: "Gəlin əvvəlcə onu xatırladaq ki, operativ-taktiki silahlar içərisində xüsusi yer tutan həmin raketlərin ixrac olunan versiyası "İsgəndər-E" adlanır və özünün hədəfləri vurma və döyüş qabiliyyətinə görə kifayət qədər fərqlənir. Yəni ondan sonra gələn daha yüksək çeşidli ballistik raketlər seriyasıdır ki, biz onları yalnız qitələrarası toqquşma təhlükəsi zamanı müxtəlif ölkələrin hərbi addımları zamanı görmüşük. Məsələn, "Şahab" raketləri kompleksi dediyimiz sinfə daxil olan və uzaq məsafələri vuran ən güclü silahların içərisində yer alıb. Ona görə də 280 km məsafədə hədəfə yönələn "İsgəndər-E" raketlərinin Ermənistana hansı əsaslarla veriləcəyini əsaslandıranlar, görünür, sadəcə, Azərbaycanda xof və qorxu yaratmaq üçün əsassız informasiya təxribatına əl atıblar. Çünki əvvəlki Suriyaya həmin silahların satılacağı haqqındakı məlum beynəlxalq skandaldan sonra indi iki Qafqaz ölkəsində guya hərbi balansı bərpa etmək üçün belə riskli və regional təhlükəsizliyi zərbə altında qoyacaq əməliyyata gedilə bilməzdi. Əsl gerçəklikdə isə NATO Türkiyədə güclü radar sistemlərini qurandan sonra Rusiya Gümrü bazasına müxtəlif qanadlı raketlər sistemini yerləşdirmək haqqında düşünməyə başladı. Suriya ətrafında İncirlik üzərindən qurulmuş Qərb hərbi sistemlərinin Rusiyaya hansı təhlükəni törətdiyini əsaslandırmağa bir o qədər də ehtiyac yoxdur. Çünki Hafiz Əsəd dönəmindən Rusiya Suriyada hava hücumundan müdafiə sistemlərinin yaradılması missiyasını öz üzərinə götürmüşdü. Deməli, Ermənistanın bəlli dairələri Rusiyanın 2016-cı ildə heç bir ölkəyə "İsgəndər-E" satmayacaqları haqda bəyanatının olmasına baxmayaraq, Azərbaycanda anti-Rusiya əhvalını gücləndirmək üçün belə bir təxribata əl atıb".

Z.Oruc onu da bildirdi ki, reallıqda ölkəmizə Rusiyanın göndərdiyi hərbi texnika və texnologiyalarının həcmi Ermənistanla müqayisə olunmayacaq dərəcədə güclüdür: "Onun məbləği ermənilərin indi aldığı 200 milyonluq hərbi kreditin və ötən on illərdəki yardımların ümumi məbləğindən qat-qat çoxdur. 5 milyard dollarlıq həmin razılaşmalardan ölkəmizə gələn güclü silahlar Azərbaycanın təhlükəsizliyini xeyli gücləndirib və Qarabağda ermənilərə qarşı istifadə olunur. Sərkisyan da Poznerə şikayətlənərkən azərbaycanlıların əlində olan rus silahından öldüklərini etiraf etməyə məcbur olmuşdu. Ona görə Ermənistana İsgəndər raketlərinin satılacağı məsələsi bizim üçün informasiya müharibəsi kimi qəbul olunmalıdır. Bir də son hakimiyyət krizinə və kütləvi etiraz aksiyalarının qarşısını almağa görə Sərkisyan aldığı krediti qaytarıb Rusiyaya verməkdən daha çox, siyasi aqibətini düşünməyə və böhranı həll etməyə xərcləyəcək. Hesablamalar görə, ən azı 50 milyon dollardan artıq vəsaitin elektrik enerjisi borclarına gedəcəyi şübhəsidir".

***

Qarabağ məsələsinin ədalətli həllinə mane olan təkcə Rusiyanın davranışları deyil. Hətta prezidentlərin görüşünə hazırlıq görən ABŞ da işğalçıya yardım ayırmaqla öz "töhfəsini" verdi. ABŞ Senatının Təxsisatlar (maliyyə ayırmaları) Komitəsi Komitə Ermənistan üçün 20,06 milyon dollar humanitar yardım, 1,7 milyon dollar xarici hərbi yardım, 600 min dollar isə beynəlxalq hərbi təhsil və təlim çərçivəsində yardım ayrılmasını təklif edib. Azərbaycan və Gürcüstana isə müvafiq olaraq 8,778 milyon dollar və 54 milyon dollar iqtisadi yardımın edilməsi nəzərdə tutulub. Komitə həmçinin, Azərbaycan və Ermənistana bərabər şəkildə hərbi yardımın ayrılmasını da təklif edib. Bakının etirazlarına baxmayaraq, Ağ Ev yenə də işğalçı ilə təcavüzə məruz qalan arasında bərabərlik işarəsi qoyub.

Z.Oruc da ABŞ-ın Qarabağ separatçılarına və Ermənistana maliyyə yardımı ayırmasına etirazını ifadə etdi: "İlk baxışda sözügedən yardımlar Amerika vətəndaşlarının vergi ödənişləri hesabına formalaşdığından Konqresin qərarı ilə onun hansı ölkəyə verilməsi Birləşmiş Ştatların sırf daxili işi sayıla bilərdi. Lakin uzun on illər boyu həmin beynəlxalq yardımlar xüsusi məqsədlərlə həyata keçirildiyindən artıq dünyada Amerikanın maddi dəstək verdiyi ölkələrin haqqında dəqiq bir xəttin izləndiyini söyləmək heç bir çətinlik doğurmur. Məsələn, İsrailə verilən vəsaitlər istənilən on ölkənin birgə aldığı yardımlardan qat-qat çoxdur. Təkcə ötən il həmin məbləğ 1 milyard dollara yaxın olub. 2016-cı ildə Birləşmiş Ştatlar hökumətinin üç Qafqaz ölkəsinə hansı meyarla yanaşdığını təyin etməyə çalışsaq, yenə də ənənəvi xəttin saxlandığını deyə bilərik. Yəni 1992-ci ildə "Azadlığa dəstək aktı" ilə bizim müstəqilliyimizin güclənməsinə köməkdən imtina edən bir dövlət sırf öz mənafeləri naminə həmin sanksiyanı 2001-ci ildə götürəndən sonra həmişə Gürcüstanı yardımların 1-ci yerinə, Ermənistanı 2-ci yerə qoyur. Bir tərəfdən Azərbaycanın artan iqtisadi gücü, o biri yandan məlum siyasi məsələlər bizim ölkəmizi Amerika yardımlarının ön yerinə çıxarmağa səbəb olmayıb. Ötən 24 ildə Ermənistanın aldığı 2 milyard dollar vəsait, o cümlədən, Dağlıq Qarabağa edilmiş 83 milyon dollarlıq dəstək həmin regionlarda təhlükəsizliyi və demokratiyanı nə qədər gücləndirib? Həqiqətənmi bundan xalq fayda götürüb və orada effektli idarəçilik, məsuliyyətli hakimiyyət formalaşıb? Əgər Ermənistanda güclü siyasi sistem yaradılıbsa, indi millət niyə küçələrdə barrikada qurub? Əsl həqiqətdə Qarabağa edilən köməyin maddi səviyyəsi separatçı rejimin sosial-iqtisadi planlarına çox da əsaslı təsir etməsə də Amerika bununla sanki onları tərəf kimi tanıyır və Qarabağ məsələn, Krımdan fərqli olaraq sanksiyaların deyil, yardımların ünvanı olmaqla ölkəmizə qarşı aparılan təcavüzkar əməliyyatların bəraət qazandıqlarını zənn edirlər. Halbuki Amerika Ermənistandan köməyini kəssəydi, aparılan sülh danışıqları və ermənilərin aqressiv razılaşmazlığına çoxdan son qoyulardı. Krım Respublikası Ukraynaya qarşı silahlı təcavüzə əl atmadan öz səsi ilə Rusiyaya birləşmək yolunu tutub. Əgər belədirsə, onda gərək Qarabağda olduğu kimi, Amerika hökuməti oraya eyni yanaşma tətbiq etsin və krımlılara siyasi-maliyyə dəstəyini əsirgəməsin. Bu fikrə Qərb aləminin reaksiyasını rahat bir şəkildə təsəvvürünüzə gətirə bilərsiniz. Halbuki Ermənistan Azərbaycan ərazilərindən çıxsın, bizim dövlətimiz Qarabağa ən yüksək maddi ayırmaları edəcək və region real bir iqtisadi-sosial rifaha qovuşacaq".

Z.Oruc XİN başçısının sülh sazişi barədə son açıqlamalarından bəhs edərkən bunları dedi: "Elmar Məmmədyarov "Böyük sülh razılşması"ndan danışırsa, deməli, danışıqlarda əvvəlki variantların üzərindən xətt çəkilib. Axı ən sonda Praqa prosesi kimi xarakterizə olunan və vasitəçilərin masaya yatırdıqları sənədin bir çox detalları Kazan görüşündə razılaşdırıla bilinməyindən dövriyyədən tamam çıxarıldı. Ondan sonra tərəfləri bir araya gətirmək düz bir il qeyri-mümkün oldu və Minsk üçlüyü hətta bununla tamam beynəlxalq missiyanın fəaliyyətindən imtina olunacağı kimi perspektivdən narahat olmağa başladı. Çünki "hər şey razılaşdırılmayıbsa, heç nəyə kompromis verilməyib" prinsipi ilə işləmək əslində iki xalqı yenidən müharibə meydanına sürükləmək deməkdir. Məgər Ukrayna münaqişəsi zamanı son Minsk dialoqu aparılarkən cəmi 16 saatlıq danışıqlarda hazır çərçivə müddəalarından ibarət sənəd ortaya qoyulmadımı? Hətta Kuçmanın Luqansk və Donetsk rəhbərləri ilə apardığı danışıqlarda ayrıca bir saziş də imzalanmışdı. Ona görə köklü sülh sənədləri üçün ATƏT çərçivəsində hərəkət etməyin başqa alternativi yoxdur. Yalnız silahlı yolla münaqişəni həll etməyə çalışmaq isə beynəlxalq aləmlə döyüşmək deməkdir. Çünki bizə siyasi koalisiya yaratmadan hərəkət etmək olmaz. ABŞ İraq və Əfqanıstan üzərinə onlarla ölkənin ittifaqını formalaşdırandan sonra getməmişdimi?.."

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY



# Böyük təhlükə: Qarabağda rus anklavı?

## Dağlıq Qarabağa rusların böyük köçünün stimullaşdırılması ciddi təhdid yaradır; rusların yaşadığı ərazi avtomatik şəkildə Moskvanın maraq dairəsində olacaq - Krım, Luqansk, Donetsk, Abxaziya, Dnestryanı kimi...

**Qarabağa qanunsuz səfər və Qarabağdan qanunsuz səfər (separatçı Bako Saakyanın London səfəri-E.P.) mövzusunda indiyədək çox yazılar yazılıb. Rəsmi Bakı hər iki qanunsuzluğa hər dəfə etirazını bildirməklə yanaşı, özünün "qara siyahı"sına yeni adlar əlavə edib. Hazırda işğal edilmiş Azərbaycan ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin "qara siyahı"sında 472 nəfərin adı var. Ancaq bununla nə dəyişir ki?..**

Ən pisi və təhlükəlisi budur ki, artıq əcnəbilər Qarabağa turistik səfər edib geri dönməyə yox, burada qalmağa, bu ərazilərdə yaşamağa gəlirlər. Artıq ermənilər torpaqlarımıza... rusların köçünü (!) stimullaşdırmağa başlayıb. Rusiyanın keçmiş milyarderi German Sterliqovun arvad-uşağını götürüb Şuşaya köçməsi sadə məsələ deyil.

Məsələ burasındadır ki, macəraçı rus tək deyil. Rusiyanın məşhur opera ifaçısı Lyubov Kazarnovskaya Qarabağa gedib, üstəlik onun işğal altındakı ərazilərimizdə fəaliyyət göstərən musiqi kollecində "ustad dərsləri" verir. Rusiyadakı səfirimiz Polad Bülbüloğlu "Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisinə qanunsuz səfər etməklə Rusiya opera ifaçısı Lyubov Kazarnovskaya bütün mövcud beynəlxalq normaları pozub" dedi, XİN "qara siyahı"sını təzələdi, müzakirə bitdi...

Rus fermer Qarabağın fermer təsərrüfatı üçün ideal yer olduğunu dedi, Şuşaya çatan kimi separatçı rejim onun arvadına toxuculuq sexində iş verdi, uşaqları məktəbə yazıldı. Eyni zamanda ifaçı Kazarnovskaya erməni jurnalistə müsahibəsində "insanlar Qarabağa gəlməkdən qorxmamalıdırlar" söylədi. Təsadüfən işlədilən ifadə deyil, Qarabağa rusların böyük köçünün stimullaşdırılmasına hesablanmış çağırışdır. Özü də təkcə rusların deyil...

Rusların yaşadığı ərazi avtomatik şəkildə Moskvanın maraq dairəsində olacaq, Krım, Luqansk, Donesk, Abxaziya, Dnestryanı kimi...Rusiya dərhal rus əhaliyə təhlükə adı altında hərbi müdaxilə rıçağını işə salır. Bu gün Azərbaycanın əsas arqumenti budur ki, Rusiya separatçılara qarşı hərbi əməliyyatlara müdaxilə etməz. Ancaq Qarabağda rus əhali yaşasa - qanunsuz da olsa - Rusiya dövləti prinsiplərinə sadiq qalıb onları müdafiə adı altında hərəkətə keçəcək. Günün birində "rus sülhməramlıları"nın Şuşada yerləşdirilməsi də açıq şəkildə masaya qoyula bilər. Kəsəsi, üfüqdə Dağlıq Qarabağda rus anklavının yaradılması ideyası olduğunu iddia etmək üçün xeyli əsaslar var.

Təqribən bir ay əvvəlki azərbaycanlı milyarderləri Qarabağa yatırım qoymağa çağırmışdım. Bizim Rusiyadakı milyarderdən reaksiya olmadı təbii ki. Ancaq Sterliqov qəfildən mal-mülkün satıb Şuşaya köçdü...İndi Qarabağda eşşək belində gəzib şəkil çəkdirir. Su dəyirmanını satın alıb un üyüdəcəyi, dağlarda ferma açıb Qarabağ cinsindən olan qoyun yetişdirəcəyi haqda planlarının olduğunu deyib. İyulun 13-də jurnalistləri başına yığıb köç səbəbindən danışacaq. Hər şeyi açıq danışmayacaq, bəllidir. Necə ki, vəkilləri onun "nüfuzlu dostlarının tövsiyəsi" ilə və Qarabağ köçdüyünü deyiblər. Kimdir nüfuzlu dostları, erməni lobbisimi, rus hakimiyyətində olanlarmı, bəlkə hakimiyyət ideoloqu Duqinin planıdır?

Sterliqov Qarabağa köçmək təklifini İrəvanda "soyqırımın" 100 illiyindəki tədbirdə alıbmış. Şuşadan ABŞ Konqresinin Qarabağa maliyyə yardımı ayırmasına etiraz edir. Rusiya qoxusu var bu münasibətdə. Deməli, onu Şuşaya aparan plan da əslində Kremldə qurulub. Özü də Ermənistanda anti-rus dalğasının başlandığı, İrəvanda Qarabağ klanına qarşı etirazların artdığı dövrə təsadüf edir keçmiş milyarder və opera ifaçısının Qarabağa köçü. Təsadüfdürmü?

"Axmaq" adlandırılan bu fermer "Qarabağ Rusiya üçün tamamilə təmiz və ucuz ərzaq mənbəyidir. Burada müxtəlif meyvə və tərəvəz yetişir, onları emal edib Rusiyaya daşımaq lazımdır", -deməklə sizcə sayıqlayırmı? Əlbəttə yox. Rusiya Qarabağda daha çox kök salmaq istəyir, öz vətəndaşlarının əli ilə. Vaxtilə Bin Ladeni qova-qova haralara aparıb çıxartmadı Qərb, hədəflərini bombalamaq, dövlətləri sıradan çıxartmaq, bayrağını sancmaq üçün. Sterliqov layihəsi də bunun bənzəri ola bilər. Rəsmi Bakı ehtiyatlı da olsa, Moskvadan bu məsələyə aydınlıq istəməlidir.

Bu gün Şuşada Rusiyanın daha bir vətəndaşı da var: Dilqəm Əsgərov. 1 il əvvəl Kəlbəcərə, ata yurduna ziyarətə gedən Dilqəm və Şahbaz Quliyev rus fermer kimi Qarabağın səfasını dada bilmir, Şuşa türməsində cəza çəkir. Ermənilər Rusiyanın bir vətəndaşını girov götürüb, digərlərinə isə meydan verib.

❑ **Elşad PAŞASOY**

# Qaz layihələri Qarabağ münaqişəsini alovlandıra bilər

**"Türk axını" ilə bağlı yekun qərarın ya ləngiyəcəyi və ya da ümumiyyətlə, verilməyəcəyi qənaətindəyəm. Çünki Rusiya iqtisadi və Türkiyə isə siyasi baxımdan bu kəməri dəstəkləmək gücündə deyil". İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu son zamanlar "Türk axını" layihəsi ilə bağlı yaranmış yeni situasiyanı "Yeni Müsavat"a şərh edərkən bunları bildirdi.**



**Əli Məsimli:** "TANAP və TAP-ın reallaşması prosesində təzyiqlər və buna bənzər xoşagəlməz hallar olacaq"



**Qubad İbadoğlu:** "Kəmər diplomatiyasında öndə olan siyasi maraqlar "Türk axını"nın reallaşmasına imkan verməyəcək"

Qeyd edək ki, bir sıra ekspertlər Rusiya və Türkiyə arasında bir müddət öncə əldə olunan və qaz nəqlini nəzərdə tutan "Türk axını" razılaşmasının pozulması şəraitində Azərbaycan üçün olduqca faydalı situasiyanın yarandığını güman edir. Q.İbadoğlunun sözlərinə görə, bu kəmərin hədəf götürdüyü ölkələrdə də sosial-iqtisadi vəziyyət onların müstəqil qərar verməsində çətinliklər yaradır: "Hesab edirəm ki, kəmər diplomatiyasında öndə olan siyasi maraqlar "Türk axını"nın reallaşmasına imkan verməyəcək. Amma müzakirələr, çox güman ki, davam edəcək. Türkiyədə yeni qurulan hökumətin bu məsələyə də iqtisadi mənafe baxımından yanaşacağına inanım yoxdur. Odur ki, Rusiyanın bu təşəbbüsünün dəstəklənməsi real görünmür".

Azərbaycan prezidentinin belə həssas dönəmdə İtaliyaya etdiyi səfəri və önəmli mesajlarla çıxış etməsini şərh edən İqtisadi və Sosial İnnovasiyalar İnstitutunun rəhbəri, deputat Əli Məsimli isə İtaliyanın Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu vurğuladı: "Ölkələrimiz arasında əlaqələr həm ikitərəfli əməkdaşlıq baxımından mühüm əhəmiyyət kəsb edir, həm də bu əməkdaşlıq Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafında da mühüm rol oynayır. Bu, özünü İtaliya vasitəsilə Azərbaycanın neft siyasətinin Avropada daha dolğun şəkildə reallaşdırılmasında çox bariz şəkildə göstərir. Azərbaycanın Avropa İttifaqı ilə xarici ticarət dövriyyəsinin 35 faizi, o cümlədən ixracın 42 faizə yaxını İtaliya vasitəsilə həyata keçirilir. Bu sahədə əldə edilən təcrübə İtaliya ilə əməkdaşlığın yeni mərhələsinə keçid vasitəsilə Azərbaycan qazının Avropa bazarına çıxarılması prosesində daha da genişlənəcək. Ona görə də Azərbaycan prezidentinin İtaliyaya istər rəsmi, istərsə də işgüzar səfərləri böyük önəm daşıyır".

Ə.Məsimlinin sözlərinə görə, Avropanın son illərdəki davranışları açıq-aşkar göstərir ki, nəyin bahasına olursa-olsun, Rusiyadan qaz asılılığını azaldacaq: "Bu asılılığın azaldılmasının hələlik yeganə real mənbəyi Azərbaycandır və Azərbaycan vasitəsilə digər resursların da cəlb edilməsidir. Önəmlisi odur ki, bunu ABŞ da istəyir. Ona görə də ABŞ "Türk axını"nın siyasi layihə olduğunu və iqtisadi əsasının olmadığını əsas gətirərək Yunanıstanı və bəzi "sapda durmaz dəhrə" rolunu oynayan Avropa ölkələrini "Türk axını"nı yox, TAP-ı dəstəkləməyə çağırır. Həm geopolitik, həm geoiqtisadi və həm də müasir dünyanın çağırışları baxımından bu, çox real yanaşmadır. Çünki əgər Avropa Rusiyanın qaz asılılığını zəiflətmək və tədricən bu asılılıqdan qurtulmaq xətti götürübsə, onda "Türk axını" da daxil olmaqla Rusiyanın Avropaya yönəlik enerji layihələrinin perspektivinin olmaması öz-özlüyündə aydındır. Sadəcə, bəzi ölkələrin bu məsələdə şıltaqlığı vəziyyəti qeyri-müəyyən hala gətirir".

O ki qaldı Rusiyanın "Türk axını" ətrafındakı uğursuzluqlardan qəzəblənməsi halında Qarabağ ətrafında vəziyyətin daha da gərginləşməsi ehtimalına, deputat bunları bildirdi: "Əvvəla, Qarabağ ətrafında vəziyyət nə vaxt gərgin olmayıb ki? İkincisi, Rusiya Ermənistanın arxasında durmasa, Azərbaycanın öz torpaqlarını azad etməsi bir neçə günlük işdir. Belə vəziyyətdə Azərbaycanın öz ərazilərini Rusiya faktoru səbəbindən hələ azad edə bilməsə də, bu, o anlama gəlməməlidir ki, Qarabağ cəbhəsində hansısa təxribatlara Azərbaycan tərəfi bir müddət bundan əvvəl olduğu kimi, yenə o cür sarsıdıcı əks-zərbə ilə cavab verməyəcək. Mütləq cavab verəcək ki, Ermənistanın havadarları xam xəyallara düşməsin. Aydın məsələdir ki, TANAP və TAP layihələrinin reallaşması prosesində təzyiqlər və buna bənzər xoşagəlməz hallar olacaq. Amma buna öyrəncəli Azərbaycan beynəlxalq ictimaiyyətin dəstəyi ilə "Əsrin Müqaviləsi"ni və Bakı-Tiflis-Ceyhan layihəsini necə gerçəkləşdirmişdisə, TANAP və TAP layihəsini də o cür gerçəkləşdirəcək".

❑ **Cavid TURAN**

# Rusiyalı milyarder Qarabağa köçməsinin əsl səbəbini açıqladı

**Azərbaycanda "qara siyahı"ya salınan rusiyalı iş adamı German Sterliqov Ermənistanın işğalı altında olan Dağlıq Qarabağa köçmək barədə qərarının səbəblərini açıqlayıb.**



German Sterliqov

Report xəbər verir ki, o, "Komsomolskaya pravda" nəşrinə müsahibəsində ailəsi üçün dəfələrlə təhlükənin yarandığını bildirib. "Bunlar sifarişlə görülən işlərdir. Məni və ailəmi yox etmək istəyirlər. Ona görə mən bəxtimi sınamaq istəmədim və bura çıxıb gəldim", - deyə Sterliqov bildirib.

Onun sözlərinə görə, əvvəlcə Ukraynanın hazırda separatçıların nəzarətində olan Luqansk vilayətinə yollanmaq istəsə də, sonradan oranı xoşlamadığını diqqətə çatdırıb. Sonda işğal altında olan Şuşa şəhərinin 27 km-dəki Şırlan kəndi ərazisində qərar tutmalı olan iş adamı Qarabağdakı gələcək biznes planlarından da danışıb: "Qarabağ Rusiya şəhərləri üçün həm də təmiz və ucuz məhsul mənbəyidir. Burada o qədər cürbəcür meyvə və tərəvəzlər var ki, onları emal edib Rusiyaya aparmaq lazımdır. Burada elə təmiz və faydalı şirələr, kompotlar, şərablar istehsal etmək olar ki, Moskva bunların dadına baxsa, orada satılan kimyəvi məhsullardan imtina edəcək".

Azərbaycanın Xarici İşlər Nazirliyi biznesmen German Sterliqovun adını "arzuolunmaz şəxslər" siyahısına daxil edib. XİN-in bəyanatında bildirilir ki, ziddiyyətli bioqrafiyası olan German Sterliqov Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə getməzdən əvvəl işğal olunmuş ərazilərin Ermənistanın bank sistemi ilə əlaqəli şəkildə çirkli pulların yuyulması və digər kriminal fəaliyyətlərin həyata keçirilməsi üçün münbit məkan olduğunu, yəqin ki, bilməmiş deyildi: "Etnik və dini əsasda təfriqəçi baxışları ilə fərqlənən Sterliqovun işğal altında olan tarixi Azərbaycan şəhəri Şuşada "insani dəyərlər"dən danışması heç bir mənəvi, etik və hüquqi çərçivəyə sığmır. "İnsani dəyərlər"dən danışan şəxs bu ərazilərdən bir milyondan artıq azərbaycanlının faşizm ideologiyasına xas qanlı etnik təmizləmə nəticəsində Ermənistan tərəfindən didərgin salındığını heç olmasa anlamalıdır. Onun işğal olunmuş ərazilərdə mətbuat konfransı keçirmək barədə təxribatçı açıqlaması bu şəxsin və əlbir olduğu qondarma kriminal rejimin uğursuz "özünü reklam" cəhdindən başqa bir şey deyil".

YENİ MÜSAVAT
N 151 (6179) 13 iyul 2015

# Türkiyədə koalisiya hökuməti qurulması qəlizləşir

## Şahin Cəfərli: "Ötən müddətdə siyasi partiyaların mövqeyində prinsipial dəyişiklik baş verməyib, CHP də, MHP də öz şərtlərində qalır..."

**Türkiyədə hökumət qurulması danışıqları rəsmən start götürdü. AKP sədri və hazırkı baş naziri Əhməd Davudoğlu həftənin birinci günündən etibarən parlamentdə təmsilçiliyi olan partiyaların rəhbərləri ilə görüşüb koalisiya təkliflərini müzakirə edəcək.**



Artıq partiyaların koalisiya şərtləri də demək olar ki, məlumdur. AKP isə bəyan edib ki, prezidentin səlahiyyətlərindən başqa bütün digər mövzularda müzakirələrə hazırdır.

Ərdoğanın səlahiyyətləri mövzusu isə müxalifətin əsas şərtlərindən biri olaraq qalır. Bu mənada Türkiyə siyasətini təhlil edən ekspertlər koalisiya hökuməti qurulmasını xeyli dərəcədə çətin hesab edirlər. Artıq bir çoxları yeni seçkilərlə bağlı danışmağa başlayıb. Hətta prezident Ərdoğanın da yeni seçkilərə gedilməsinə tərəfdar olduğu bildirilir. Yalnız yeni seçilmiş deputatlar və partiya aparatı daha bir yorğunluq və çətinlik yaşamamaq və mandatın verdiyi imkanları qazanmaq üçün erkən seçkilərə soyuq yanaşır.

Türkiyə qanunlarına görə, qarşıdakı 45 gün ərzində hökumət qurulmasa və prezident bu səlahiyyəti başqa siyasətçiyə verməyəcəyi halda yeni seçkilər təyin olunacaq ki, bu da təxminən noyabrın əvvəllərinə təsadüf edir.

Siyasi şərhçi Şahin Cəfərli deyir ki, koalisiya qurulması imkanlarında hər hansı dəyişiklik yoxdur. Onun fikrincə, Türkiyədə koalisiya qurulması ehtimalı seçkidən bir gün sonra - 8 iyunda nə qədər idisə, indi də o qədərdir: "Ötən müddətdə siyasi partiyaların mövqeyində prinsipial dəyişiklik baş verməyib. CHP də, MHP də öz şərtlərində qalır. MHP-nin TBMM sədrinin seçkisində Dəniz Baykala dəstək verməməsi və bunun nəticəsində AKP-nin namizədi İsmət Yılmazın seçilməsindən sonra bu iki partiya arasında koalisiya qurulması üçün münbit siyasi-psixoloji zəmin yarandığı güman olunurdu, lakin müsbət atmosfer qısa zamanda aradan qalxdı. MHP lideri Dövlət Baxçəli yalnız 3 təməl şərt çərçivəsində AKP ilə koalisiyanın mümkün ola biləcəyini bəyan etdi: 1. "Çözüm süreci" deyilən kürd məsələsinin həlli prosesinin dayandırılması; 2. 17-25 dekabr



(2013) korrupsiya və rüşvət qalmaqalının sonadək obyektiv araşdırılması və günahkarların məhkəməyə çıxarılması; 3. Prezident Ərdoğanın hökumətin fəaliyyət sahəsinə müdaxilədən tamamilə vaz keçərək öz Konstitusion səlahiyyət çərçivəsinə qayıtması. D.Bahçeli 3-cü şərti dilə gətirərkən öz üslubuna uyğun sərt ifadələr də işlədərək prezident Ərdoğanın Saraydan çıxaraq Çankaya köşkünə dönməsinin zəruri olduğunu da vurğuladı".

Ş.Cəfərli deyir ki, AKP-nin bu şərtləri, xüsusən də birinci və üçüncü maddələri qəbul etməsi mümkün deyil: "Çözüm süreci" AKP-nin ən önəmli layihəsidir və Ərdoğan bu problemi həll edib, PKK terrorunu bitirərək tarixə düşmək istəyir. Bu layihədən imtina edərsə, AKP ümmətçi kürdlərin dəstəyini tamamilə itirə bilər. Ən əsası isə Türkiyə PKK terrorunun və iri şəhərlərdə kürd etirazlarının başlaması nəticəsində yeni bir qarışıqlıq və qeyri-müəyyənlik mərhələsinə girə bilər. Təəssüflə qeyd etməliyik ki, kürd siyasi-separatçı hərəkatı Türkiyədə mükəmməl təşkilatlanıb və Öcalandan (yaxud Qəndildəki qərargahdan) gələn komanda ilə eyni anda ölkənin bütün ərazisində mütəşəkkil surətdə hərəkətə keçmək qabiliyyətinə malikdir. 6-7 oktyabr 2014-cü il olayları kürd separatizminin Türkiyədə çox ciddi destabilizasiya potensialına malik olduğunu ortaya qoydu. Xatırlayırsınızsa, həmin vaxt kürdlər Türkiyə dövlətinin Kobanidəki kürd əhaliyə qarşı İŞİD zülmünə biganə qaldığını bildirərək kütləvi etiraz aksiyaları keçirmiş və bir sıra şəhərlərdə böyük iğtişaşlar törətmişdilər. Hətta dövlət polisin aciz qaldığını görərək bəzi Cənub-Qərb bölgəsi şəhərlərinə ordu hissələri yeritmişdi".

Ş.Cəfərlinin fikrincə, AKP-nin müxalifətin şərt olaraq irəli sürdüyü "çözüm süreci" və prezidentin səlahiyyətlərinin məhdudlaşdırılması kimi məsələlərdə geri çəkilməsi mümkün görünmür. Bütün bunlar da AKP-MHP koalisiyasının reallaşması ehtimalını həddən artıq azaldır. Ekspertə görə, bu şərtlərdə AKP-MHP koalisiya hökumətinin qurulması sensasiya olardı.

CHP ilə koalisiyana gəldikdə, Ş.Cəfərli hesab edir ki, bu partiya da korrupsiya və Ərdoğanın daxili və xarici siyasətdəki rolunun məhdudlaşdırılması məsələsində MHP ilə paralel düşüncələrə sahibdir: "Bununla yanaşı, CHP islahat xarakterli bir sıra addımların atılmasını, məsələn, 10 faizlik seçki baryerinin 5 faizə endirilməsi, polisə geniş səlahiyyət verən "Daxili təhlükəsizlik Qanunu"nun müvafiq maddələrinin dəyişdirilməsi, YÖK-ün (Ali Tehsil Şurası) ləğvi, eləcə də xarici siyasətdə kardinal dəyişiklik edilməsi və özünün seçkiqabağı sosial vədlərinin həyata keçirilməsini tələb edir. Bu şərtlərin əksəriyyəti AKP üçün qəbuledilməz olduğundan, AKP-CHP koalisiyasının formalaşması ehtimalının da az olduğunu söyləyə bilərik".

Ş.Cəfərli deyir ki, indi daha real görünən erkən seçkilərin keçirilməsidir: "Düzdür, MHP və ya CHP-nin ali dövlət mənafelərini əsas tutaraq ölkənin hökumətsiz qalmaması üçün öz şərtlərini yumşaldıb AKP ilə koalisiya qurması variantını tam istisna etmək olmaz. Lakin məsələ burasındadır ki, AKP tərəfi də öz şəriksiz hakimiyyətini kiminləsə bölüşməyə həvəsli deyil. Keçirilən rəy sorğularında AKP-nin səs faizində müəyyən artım olduğu da ortaya çıxıb. Bu səbəblə AKP-nin erkən seçki variantına üstünlük verməsi sürpriz olmayacaq".

❑ **KƏNAN**

# Rus deputat: "ABŞ Putinə qarşı qiyam hazırlayır"

**Rusiya KİV-lərinin verdiyi məlumata görə, Dövlət Dumasının deputatı, "Milli-azadlıq hərəkatının" lideri Yevqeni Fedorov Yekaterinburqda keçirtdiyi mətbuat konfransında gözlənilməz açıqlama ilə çıxış edib. Deputat "Putinin oliqarxları"nı "texniki beşinci kolon" adlandırıb.**

Musavat.com-un verdiyi məlumata görə, bir müddət öncə Y.Fedorov Qərbdən yönləndiriləbiləcək oliqarxların dövlət çevrilişi barədə xəbərdarlıq etmişdi. Jurnalistlər isə ona sahib olduqları bizneslərı xarici təsir altında olan iş adamlarının adlarını sadalamışdılar. Bu sırada Gennadi Timçenko, Potenberq qardaşları, Yuri Kovalçuk, Əlişir Usmanov və Vahid Ələkbərovun adları yer almışdı.

Deputat Y.Fedorov bütün oliqarxları "xaricilər" adlandırmışdı. O, vurğulamışdı ki, ABŞ həmin oliqarxları bizneslərinin çökdürülməsiylə təhdid edərək, onlara həmişə təsir göstərə bilər. Eyni zamanda, deputat iddia edib ki, qiyamda iştirakla bağlı danışıqlar artıq başlayıb.



Vladimir Putin

# Şeyxin söyləmədikləri



Kənan RÖVŞƏNOĞLU

## "Bir nömrəli iftar süfrəsi" haqda qeydlər

**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Ramazan ayı münasibətilə öz iqamətgahında iftar mərasimi təşkil edib. Əslində bu cümləyə ənənəvi kəlməsi əlavə etmək istədim, çünki Şeyx bu məclisi hər il bir dəfə təşkil edir. Amma məclis ildə bir dəfə və rəsmilər üçün təşkil olunduğu üçün ənənəvi yazmağa ehtiyac duymadım.**

Ancaq ilk növbədə bu məclisin müsbət tərəflərini qeyd etmək lazımdır. İldə heç olmasa bir dəfə rəsmilər Şeyxin iqamətgahına toplaşıb iftar süfrəsində iştirak edirlər. Doğrudur, orda olanların deyilənə görə, çoxu oruc tutmur, amma olsun, hər halda bu da bir fürsətdir, insanlar dini dəyərlərlə tanış olur.

Xüsusən də bu iftar mərasimlərində Azərbaycan prezidentinin, ölkədə mövcud olan ənənəvi dini konfessiyaların rəhbərləri - yəhudi icmasının, Bakı və Xəzəryanı Yeparxiyanın rəhbərlərinin iştirakı dini zəmində müharibələrin genişləndiyi, məzhəbi qarşıdurmaların həssas olduğu bu günkü dünyada çox önəmlidir.

Amma hörmətli Şeyxülislam ildə bir dəfə rəsmilər üçün təşkil etdiyi iftar məclisində milli birlik və barışın bərqərar olması üçün daha çox işlər görə bilərdi. İlk növbədə cəmiyyətin müxtəlif təbəqələrindən nümayəndələri dəvət edə bilərdi. Şeyxülislam yalnız xristian və yəhudi din xadimlərini bir araya gətirməklə məsul deyil, o həm də əhalisinin sayı 10 milyona çatan Azərbaycan xalqının dini mərkəzinin rəhbəridir. Yəni Şeyxin iftar süfrəsində prezident və ya xristian, yəhudi din adamları ilə yanaşı sadə insanlar, müxtəlif təbəqələrdən olan şəxslər, ehtiyaclı insanlar iştirak edə bilərdi. O zaman bu, həqiqətən iftar süfrəsi olardı, nəinki indiki kimi, yüksək təbəqə üçün nəzərdə tutulmuş ziyafət görüntüsü yaratmaqla.

Şeyxin təşkil etdiyi iftar süfrəsinə yenə də siyasi müxalifət camiəsindən (hətta formal da olsa - K.R) kimsə dəvət olunmadı. Halbuki, bunun olması cəmiyyət üçün, ölkənin birliyi və maraqları baxımından müsbət addım olardı. Şeyx öz çıxışında siyasi məhbusların əfv olunması, ən azı Ramazan ayı münasibəti ilə əfv sərəncamı verilməsinə və bununla da dinlərin müqəddəs missiyasına uyğun olaraq sülh və əmin-amanlığın bərqərar olunması istiqamətində sözlü də olsa, təşəbbüs edə bilərdi.

Ancaq olmadı. Bəlkə də əslində bunu yazmaqla Şeyxi çətin duruma salır, ondan mümkün olmayan, edə bilməyəcəyi işləri tələb edirəm. Bəlkə də hörmətli Şeyxə "mövzudan kənara" çıxmağa icazə verilmir, kimlərsə ona bu cür məclislərdə mövzu məhdudiyyəti tətbiq edir. Əlbəttə, bu cür iddiaları təsdiq və ya inkar etmək imkanımız yoxdur. Lakin istənilən halda ölkənin formal da olsa dini liderinin edə biləcəyi, etməli olduğu bir çox işlər var və onlardan ən mühümü ölkədə siyasi, sosial gərginliyi yumşaldan addımlara çağırışdır. Hazırda ən aktual mövzunun siyasi və vicdan məhbusları mövzusu olduğunu nəzərə alanda Şeyxdən bunu gözləməyin də normal olduğunu deyə bilərik. Üstəlik artıq 5-ci ildir ki, günahsız olaraq həbsdə saxlanan dindarlar var, saxta ittihamlarla həbs olunan ictimai fəallar var. Onların azad edilməsi, Ramazan əfvinin verilməsi çağırışı edilmədi.

QMİ sədri cəmiyyətin ondan gözləyə biləcəyi (bəlkə də cəmiyyət artıq ondan heç nə gözləmir) sözlərin, aktual problemlərin heç birini qaldırmadı. Yenə də ənənəvi, normativ çıxış, tərif və minnətdarlıq.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri belə Ramazan ayında telekanallarda dini verilişlərin olmadığını irad edərək, insanların bu səbəbdən xarici ölkə televiziyalarına baxdığını bildirdi. Amma Şeyx hətta bu məsələyə də münasibət bildirmədi, çağırış etməyə gərək duymadı. 30 ildən artıqdır Azərbaycan müsəlmanlarının ruhani lideri olan birisi daha çox siyasətçi kimi davranaraq konyunkturaya uyğunlaşmağa çalışdı.

Hər zaman olduğu kimi.

YENİ MÜSAVAT
N 151 (6179) 13 iyul 2015



# Avtobus qəzalarını necə durdurmaq olar…

## Ekspertlər deyir ki, bunun əsas səbəbi səhlənkarlıq, nəzarətsizlik və şirkətlərin məmur-oliqarxların nəzarətində olmasıdır

**Azərbaycanda, xüsusi ilə paytaxt Bakıda avtobuslar təhlükəli nəqliyyat növünə çevrilib. Demək olar hər gün bir, bəzən iki avtobus qəzası baş verir. İki gün öncə Bakıda metronun "Xalqlar Dostluğu" stansiyasının yaxınlığında "Daweoo" markalı sərnişin avtobusu bir neçə maşını əzərək dayanacağa çırpıldı. Nəticədə 9 nəfər yaralandı.**

Daha bir avtobusun iştirak etdiyi ağır yol-nəqliyyat hadisəsi Tovuz rayonunda baş verdi. Rayonun Qovlar qəsəbəsində Qazaxdan Bakıya sərnişin daşıyan "Daewoo" markalı avtobusla "Mercedes" markalı minik avtomobilinin toqquşması nəticəsində "Mercedes"də olan 4 nəfər dünyasını dəyişib. Avtobusda olan 10-dan artıq sərnişin isə müxtəlif bədən xəsarətləri alaraq, Tovuz Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.

Ümumi məlumata görə isə bu ilin altı ayı ərzində 47 avtobus qəzası baş verib ki, bunun da nəticəsində 19 nəfər həlak olub, 52 nəfər isə yaralanıb. Bu fakt onu göstərir ki, ötən illərə nəzərən bu il avtobus qəzalarının sayı xeyli artıb.

Bəs, canlar alan avtobus qəzalarının sayının artmasına səbəb nədir?

Nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli buna səbəb kimi əksər avtobus sürücülərinin avtomobili yüksək sürətlə idarə etməsini və tez-tez yol hərəkəti qaydalarını pozmasını əsas gətirib: "Xeyli sayda avtobus sürücüsü var ki, onların sürcülük vəsiqəsi yoxdur. Belə ki, sərnişin daşıma işi ilə bağlı fəaliyyət göstərən özəl şirkətlər kütləvi şəkildə sürücülüyə malik olmayan insanları işə götürür, hansı ki, onların əksəriyyətinin yol hərəkəti qaydalarından heç bir məlumatı yoxdur.

Dünya təcrübəsində sərnişin daşıma ilə məşğul olan şirkətlər sürücüləri işə götürərkən müəyyən qaydalarla, test üsulu ilə imtahan edərək sınaqdan keçirirlər. Lakin təssüf ki, hələ ki, bizdə bu cür mexanizm tətbiq olunmayıb".

Ekspert sürücülər üzərində nəzarətin də çox zəif olduğunu vurğulayıb: "Şirkət sahiblərinin, adətən, hansısa oliqarxa, dövlət məmuruna bağlılığı olur. Buna görə də sürücülərdə də bir arxayınçılıq yaranır. Nəticədə avtobus sürücüləri çox zaman işıqforun qırmızı göstəricisində ötüb keçir, ötmə qaydalarına riayət etmək istəmir və yaxuda da yüksək sürət həddi ilə hərkət edirlər. Yol polisi əməkdaşları da buna göz yumur. Şəxsən mən dəfələrlə bu cür halların şahidi olmuşam. Nəticədə canlar alan qəzalar yaranır".

İlqar Hüseynli bu cür qəzaların qarşısını almaq üçün daha ciddi tədbirlər həyata keçirmək lazım olduğunu deyib: "Qəzalardan sonra sərnişin daşıma ilə məşğul olan özəl şirkətlər çox zaman məsiliyyətdən kənarda qalır. Əgər hər qəzaya görə şirkətlər cərimə olunarsa, onlar öz işlərinə daha məsuliyyətli yanaşar, sürücülərin peşəkarlıqlarının artırılması yöndə işlər görərlər. Hər kəsə məlumdur ki, ölkədə yol hərəkəti qaydalarını pozan sürücülər üçün cərimələr artırıldıqdan sonra bu cür halların sayı azaldı. İndi bu cərimələr şirkətlər üçün tətbiq edilərsə, çox güman ki, avtobus qəzalarının da sayı azalmış olar. Lakin çox zaman bu cür hadisələrdə minik avtomobiləri idarə edən sürücülərin də ehtiyatsılığı mühüm rol oynayır. Xüsusən də nəzərə alsaq ki, son vaxtlar paytaxtada avtoxuliqanlıq dəb halını alıb".

❑ Xalidə GƏRAY

# Milyon manatlarla dövlət əmlakını mənimsəyən Qüdrət Şükürov harada gizlənir…

## "Bakılift-təmir" böyük oğurluq haqda sorğumuzu cavabsız qoydu; 8 milyon vergi borcu olan "Bakılift-təmir" rəisinin sürücüsünün 5 milyona mülk alması araşdırılmamış qalıb; Qüdrət Şükürov 3 rəisi qurban verməklə yaxasını kənara çəkir…

**Vergilər Nazirliyinin Bakı Şəhər İcra Hakimiyyəti Mənzil Kommunal Təsərrüfat Departamenti tərkibindəki "Bakılift-təmir" İstehsalat Birliyində yoxlamaları yekunlaşdırması, "Bakılift-təmir"ə tabe olan 3 böyük idarənin - "Bakılift-1", "Bakılift-2", "Bakılift-3" ixtisaslaşdırılmış istehsalat idarələrinin rəislərinin qandallanaraq, həbs edilməsi haqda xəbər vermişdik. Həftəsonu yenidən "Bakılift-təmir"lə əlaqə saxlayıb həbslərlə bağlı verdiyimiz sorğuya cavab almağa çalışdıq.**

Lakin yenə də katibə xanım "rəis işdə yoxdur" deyib, dəstəyi asmaqla işini bitmiş saydı. Hərçənd ki, söhbət böyük büdcə oğurluqlarından gedir. Qüdrət Şükürov etdiyi əməllərə dair mediaya cavab vermək yerinə, katibəsinin arxasında gizlənir.

Yada salaq ki, Vergilər Nazirliyi "Bakılift-təmir"də uzun müddət yoxlamalar aparıb, nəticədə, əvvəllər də məlumat verdiyimiz kimi, ciddi vergi pozuntularının və yeyintilərin olması üzə çıxıb, 3 rəis həbs edilib. Daha doğrusu, qurban verilib. Hər kəsə bəllidir ki, yuxarıların icazəsi olmasa, aşağılar büdcə vəsaitinə əl uzada bilməzlər. "Bakılift-təmir"də də belə olub. Orada böyük yeyintilərin olması 1-ci Avropa Oyunlarından əvvəl də müəyyən olunmuşdu. Məlum olmuşdu ki, "Bakılift-təmir"in baş direktoru Qüdrət Şükürovun sürücüsünün "adına" nə az-nə çox, düz 5 milyon manatlıq əmlak var. Bu ilin fevralında "Yeni Müsavat" bu haqda "Vəzifəli məmurumuz sürücüsünə 5 milyona mənzil aldı - sensasiya" sərlövhəli yazı dərc etmişdi. Həmin yazıda qeyd olunurdu ki, Q.Şükürovun sürücüsünün "adına" Bakının mərkəzindəki "Alov qüllələri" kompleksində dəyəri 5 milyon manat olan mənzil var! İzahat üçün deyək ki, həm "Alov qüllələri" kompleksində, həm də "Hilton" hotelində şəxsi mənzil üslubunda da yaşayış sahələri var və onlar yüksək qiymətlərə satılır.



Yeri gəlmişkən, onu da qeyd edək ki, Vergilər Nazirliyinin hər il açıqladığı büdcəyə borclu təşkilatların siyahısında "Bakılift-təmir"in də adı var. Aldığımız məlumata görə, "Bakılift-təmir"in rəsmən 8 milyon manat vergi borcu var idi. Görəsən həmin borcun 5 milyonu Q.Şükürovun sürücüsünün "adına" alınan əmlaka xərclənməyib ki?

Sorğuya cavab verilməyəcəyi təqdirdə, qəzetimiz qanunları pozduğuna görə idarəni məhkəməyə verəcək.

Mövzunu davam etdirəcəyik.

❑ E.HÜSEYNOV

# Müəmmalı qətl, ortadan itən 320 min manat…

## Bakı sakini şikayətinin araşdırılmadığını deyir

**"Qohumum mərhum Kərim Süleyman oğlu Əliyevin Bakı şəhəri, Nəsimi rayonu, S. Rüstəm küçəsi ev 52 ünvanda və Bakı şəhəri, M.Fətəli döngəsi ev 2, mənzil 10 ünvanda yerləşən 2 mülkünü ələ keçirmək üçün onun ölümündən sonra sənədləri saxtalaşdırmaqla mülkiyyətinə sahib olublar". Bu sözləri redaksiyamıza ünvanladığı məktubda Bakı sakini Mina Məmmədova yazıb.**



Məktub müəllifi qeyd edir ki, hüquq-mühafizə orqanlarına yazdığı ərizələrinə cavab ala bilmir: "Qohumum Kərim Əliyev 11 dekabr 2012-ci ildə qəflətən, müəmmalı şəraitdə öldürülüb. Onun ölümündə Pərviz Rüstəmzadənin rolu var. Guya Kərim Əliyev 2 avqust 2012-ci il tarixli razılaşmaya əsasən ondan 320 min manat alıb. Həmin pulu 2 avqust 2013-cü il tarixinədək qaytarmağı öhdəsinə götürüb. Pulu qaytara bilmədiyi təqdirdə isə onun əvəzinə Bakı şəhəri, Nəsimi rayonu, S. Rüstəm küçəsi ev 52 ünvanda yerləşən yaşayış sahəsinin mülkiyyət hüququ ilə Pərviz Rüstəmzadənin adına rəsmiləşdirilməsinə etiraz etməyəcəyini öz üzərinə götürüb. Pərviz Rüstəmzadə Kərim Əliyevin öldüyünü bildiyi, hətta dəfndə iştirak etdiyi halda ona qarşı iddia qaldıraraq 320 min manat məbləğində pulun və məhkəmə xərclərinin cavabdehdən tutulması barədə" qətnamə çıxarılması xahişilə Yasamal Rayon Məhkəməsinə müraciət edib. İddia ərizəsinə hakim Fuad Babayev 23 may 2014-cü il tarixdə baxaraq iddia tələbini təmin edib. Qətnamədə hakim yazır ki, "İddiaçı Rüstəmzadə Pərviz Çingiz oğlunun cavabdeh Əliyev Kərim Süleyman oğluna qarşı borcun məcburi qaydada qaytarılması tələbinə dair iddia tələbi təmin edilsin. 320 min manat pul cavabdeh Əliyev Kərim Süleyman oğlundan alınıb iddiaçı Rüstəmzadə Pərviz Çingiz oğluna ödənilsin. İş üzrə iddia ərizənin verilməsi ilə əlaqədar iddiaçı tərəfindən ödənilmiş 30 manat dövlət rüsumu cavabdeh Əliyev Kərim Süleyman oğluna aid edilsin".

Qətnamədən apelyasiya şikayəti verdik. Lakin həmin iclasda Pərviz Rüstəmzadə iştirak etmədi. Mərhum K.Əliyevin nümayəndəsi qismində isə Elmira Durasan qızı Məmmədova çıxış edirdi. Nümayəndə Kərim Əliyevin 11 dekabr 2012-ci il tarixdə vəfat etdiyini məhkəmədə demədi. Üstəlik, borcu qismən etiraf etdi. Onu da qeyd etməliyəm ki, Kərim Əliyev sağlığında, 14.08.2012-ci il tarixində 13 saylı dövlət notariat kontorunda Elmira Məmmədovaya etibarnamə verib və 25.08.2012-ci il tarixli ərizəsi əsasında həmin etibarnamə ləğv olunub. E.Məmmədova etibarnamənin ləğv olunduğunu bildiyi halda özünü cavabdeh Kərim Əliyevin səlahiyyətli nümayəndəsi kimi təqdim edib. Üstəlik, E.Məmmədova da K.Əliyevin yasında iştirak edib.

Elmira Məmmədovanın olmayan borcu etiraf etməsi bu işin nəticəsi ilə bilavasitə maraqlı olduğunu sübut edir. Etibarnamənin ləğv edildiyi və etibar edənin ölümü ilə etibarnaməyə xitam verildiyi halda hansı əsasla Elmira Məmmədova özünü onun nümayəndəsi kimi təqdim edib?"

Məktub müəllifi yazır ki, qanuni qüvvəsini itirmiş etibarnaməyə əsasən E.Məmmədova faktiki olaraq olmayan borcu etiraf edib: "Qeyd edildiyi kimi etibarnamə ləğv edildikdən sonra, ləğv edilmiş etibarnamədən istifadə ediblər. Bu isə qanuna görə yol verilməzdir. Borc verən nədənsə 320 min manat küllü məbləğdə borcun verilməsi barədə razılaşmanı notariat qaydada təsdiq edilməməsinin səbəblərini aydınlaşdırmır. Əgər borc verən küllü məbləğdə pul vermişdirsə, borc təminatı olaraq onun adına sənədləşdiriləcəyi vəd olunan Nəsimi rayonu, S. Rüstəm küçəsi ev 52 ünvanda yerləşən fərdi yaşayış evinin sənədlərinin əslini almışdımı? Yox almayıb.

Həmin evin sənədlərini Pərviz Rüstəmzadənin hazırda etibarnamə üzrə nümayəndəsi olan Elşən İsmayılovla Elmira Məmmədova Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər Ərazi İdarəsinə qarşı iddia ərizəsi ilə 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət ediblər. İddialarında göstəriblər ki, Bakı şəhəri, S.Rüstəm küçəsi 52 saylı ünvanda yerləşən fərdi yaşayış evinin sənədlərinin itdiyi və tapılmadığı üçün evə texniki pasport və dövlət reyestrindən çıxarış verilsin. İddia təmin edilib.

Bu yolla Kərim Əliyevin əmlakı ölümündən sonra ələ keçirilib. K.Əliyev vəfat etdiyi zaman onun barmağında 3 karatlıq brilyant qaşlı üzük və boğazında boyunbağını və bir karatlıq brilyant qaşı da götürüblər. Evindəki qızıl-zinət əşyaları yoxa çıxıb. Hətta onun ölümü haqda şəhadətnaməni Pərviz Rüstəmzadənin atası Çingiz Rüstəmzadə alıb. K.Əliyevin əmlaklarının saxta sənədlərlə qanunsuz yolla ələ keçirilməsi haqda şikayət ərizələri yazdığıma görə mənə qarşı tanımadığım şəxs vasitəsilə hədə-qorxu gəlirlər".

Məktub müəllifi məsələnin araşdırılmasını xahiş edir.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 151 (6179) 13 iyul 2015

# "Qa" deyəndə çörək, "qu" deyəndə su... - təyyarələrdəki sinif fərqi neçəyədir...

## "Biznes klass" sərnişinlərin ağlagəlməz üstünlükləri nələrdir? Maşın qiymətinə bilet; özəl corab, parfüm, yuxu dəsti... sonra nə?

**Böyük əksəriyyət bu sualı eşidəndə gülür. Bizim dünyamızdan olanlar, ən azından. Çünki iki-üç saata görə "dünyanın pulunu" bir yerdən başqa yerə getməyə görə xərcləmək məntiqli görünmür. Amma çox adam da bunun nə demək olduğunu bilmir. Necə deyərlər, evdə bişməyib, qonşudan gəlməyib... kateqoriyasında olan "biznes klass", birinci kateqoriyalı uçuşun tərkibinə nə daxil olması barədə çox adam məlumatsızdır.**





**Lüks girişdən başlanır - növbələrdə dayanmaq yox!**

Türkiyənin "Milliyyət" qəzetində bununla bağlı maraqlı bir dosye hazırlanıb. Bu uçuşu gerçəkləşdirən bir mütəxəssis səyyah "biznes klass" sərnişinlərinin yaşadıqlarını anladıb. Musavat.com təcrübəli səyyahın yazdıqlarını sizinlə bölüşür:

"Biznes klass» biletinizi aldınız, xeyirli olsun. Aeroporta gəldiniz, amma qeydiyyatda uzun bir növbə. Siz darıxmayın, çünki ayağınızın altına qırmızı xalılar sərilib. Sizdən əvvəl dayanan 1-2 nəfər var, ya da qarşınızda ümumən heç kim yoxdur. Ona görə də "biznes klass" sərnişinləri üçün ayrıca girişdən qeydiyyatınızı həyata keçirəcəksiz. Üstəlik, ən azı 10 kilo daha artıq çəkidə baqaj daşımaq kimi üstünlüyünüz var. Əl baqajınız 10 kiloya qədər qəbul edilsə də, "biznes klass" sərnişinləri üçün bu, 13-14 kiloya qədərdir. Təyyarəyə də eyni qaydada, özəl girişdən keçəcəksiz. Burda da uzun növbələr gözləmək əzabınız olmayacaq.

Təyyarə gəldi, qapıya çatdınız. Burda da tələsməyə ehtiyac yoxdur, növbəyə dayanmağa da. Siz təyyarədə toplam 20-30 oturacağı olan bizness sərnişinləri üçün açılan özəl sıradan içəri keçəcəksiniz. Boardinqini (keçid kartını) göstərən "biznes klass" sərnişinləri hər kəsin mindiyi böyük avtobusa yox, özəl bir mikroavtbusa minir. Təyyarənin ən qabaq qapısından keçid isə ancaq "biznes klass" sərnişinlərinə aiddir. Bu, xarici səfərlər üçün keçərlidir, daxili səfərlərdə belə bir sistem yoxdur. Buradakı əsas məntiq isə təyyarənin içinə girən biznes sərnişinin dərhal soyuq dəsmalla sərinlədilməsi, "xoş gəldiniz" deyərək, bəzi təamlara qonaq edilməsidir. Bundan başqa, təyyarənin digər sərnişinləri «biznes klass»dakılara mane olmamaq üçün koridordan keçirlər.

## "Biletiniz "ekonom klass" olacaq, ya "biznes klass"?"



**Onların ayaqyolusu da özəldir, ayaqyolunun içindəki parfümü də...**

Təyyarənin içində ancaq "biznes klass" sərnişinlərinin istifadə edə biləcəyi özəl ayaqyolları da var. Beləcə, gecənin bir saatı oyandığınız zaman ayaqyolu növbəsində də gözləməmiş olursunuz. Üstəlik, onlara aid ayaqyoluların içində ekonomdan fərqli olaraq, parfümeriya, kolonya, yaş dəsmal, diş fırçalama seti, üz qırxma seti, əl kremi də olur.

Bundan başqa, "biznes klass" sərnişinlərinin son dərəcə geniş bir yemə-içmə menyusu və yol boyunca "qa" deyəndə yemək, "qu" deyəndə su istəmək kimi bir lüksü var. Biznes sərnişinlər üçün özəl hazırlanmış bir torbanın içində isə əsasən daraq, yatmaq üçün parçadan hazırlanan eynək, üz qırxma dəsti, qulaq tıxayıcı, əl və ya dodaq kremi, diş fırçalama seti və xüsusi corab olur. Corab deyib keçməyin, siz o corabla səyahət boyunca rahat hərəkət edə bilirsiz, ayaqqabılarınızı təyyarədə çıxarmaq, ayaqyoluna belə corabla getmək lüksünüz var.

**Yeməkdə limit yox, yatmaq üçün xüsusi oturacaq və...**

Əgər səyahətiniz uzundursa, o zaman səhər, nahar, şam yeməklərini də burda edəcəksiz. Menyunu da, təbii ki, özünüz seçəcəksiz. Yemək aralarında mədəniz qazınsa, yenə də sizə özəl hazırlanan sendviçlər, kekslər, peçenyelər, atışdırma xarakterli yeməklər xidmətinizdədir.

"Biznes klass" sərnişinləri üçün təyyarə daxili bəzi əyləncələr də var. Belə ki, pultla, ekran üzərinə toxunaraq və ya cib telefonu tərzli bir pultla idarə edilən ekranlarda istədiyiniz filmə, klipə, seriallara, sənədli filmlərə baxa, səyahətinizi zövqlü hala gətirə bilərsiz. Uşaqlar üçün oyunlar da öz yerində.

Yazıda qeyd edilib ki, "biznes klass" uçuşunun ən böyük özəlliyi sərnişinlərə rahat yatma şəraitinin yaradılmasıdır. 12-18 saat arası səyahət edənlər üçün rahat yuxu vacib şərtdir. Əgər "ekonom klass"la uçuş gerçəkləşdirsəniz, istədiyiniz kimi, rahat yata bilməyəcəksiniz ki, bu da səfərinizin sonrakı hissəsində sizə problem yaradacaq. "Biznes klass" sərnişinləri isə 140-160 dərəcə və hətta 180 dərəcəyə qədər açılan oturacaqlarda yata bilirlər və səfər bitəndə özlərini daha rahat hiss edirlər".

**Ev qiymətinə biletlər - 30 min dollarlıq «biznes klass» lüksü...**

Bu, bir səyyahın danışdıqları və gördükləri idi. Amma bizim bildiyimiz fakt budur ki, "biznes klass" təyyarə biletləri standartdan ən azı iki-üç dəfə fərqlənir. Bununla yanaşı, dünyada astronomik məbləğlərə, uzun məsafələr üçün "biznes klass" bilet qiymətləri də var. Ev qiymətinə, maşın qiymətinə biletlərdən danışırıq sizə. Onların bəzilərini nəzərinizə çatdıraq:

Nyu York-Sinqapur

Singapur Havayolları - bir nəfərlik bilet 14.000 dollar

Los Anceles - Melbourne

Qantas Hava Yolları - bir nəfərlik bilet - 14.974 dollar

Los Anceles - Tokyo

Japon Hava Yolu. Burada isə təkcə oturacaq yox, sərnişinlər özlərinə aid bir suit alırlar az qala. Bir nəfərlik bilet - 16.078 dollar

Nyu York- Sinqapur

Virgin Atlantik Hava Yolları ilə. Bir nəfərlik bilet - 21.000 dollar

Nyu York - Sinqapur

İsveçrə Hava Yolları ilə. Bir nəfərlik bilet - 22.265 dollar

Honq Konq - Nyu York

Cathay Pacific Hava Yolları ilə. Bir nəfərlik bilet - 26.247 dollar.

Nyu York - Pekin

Koreya Hava Yolları ilə. Bir nəfərlik bilet - 27.000 dollar.

San Fransisko - Abu Dabi

Emirates Hava Yolları ilə. Bir nəfərlik bilet - 28.090 dollar.

Los Anceles-Dubay

Emirates Hava Yolları ilə. Bir nəfərlik bilet - 30.000 dollar

❑ **Sevinc TELMANQIZI, musavat.com**

---

# Sərsəmsən, sərsəm...



**Sevinc TELMANQIZI**
**s.qurbanova@gmail.com**

## Yaxud hasarlı dənizdə necə dincəlməli

**Mən adətən, belə xəbərləri qəzetimizin 16-cı səhifəsi üçün tapıb hazırlayıram. "Adam iti dişlədi" janrında xəbərlər sayılır bunlar. Hətta xatırlayıram, bir dəfə metroda hazırladığım 16-cı səhifədəki hansısa xəbəri oxuyan corabsatan əmi gülə-gülə əlini əlinə vurub belə reaksiya vermişdi: "Bu köpəyin qızı belə şeyləri hardan tapıb çıxarır?". Söyüş hissəsini saymasaq, əmi tamamilə haqlı idi, çünki belə məlumatları hətta dünyanın ən əndrəbadi saytları arasından da axtarıb tapmaq çətin olur. Bəzən qosqoca bir günün gedir beş qəribə xəbər tapmaq üçün.**

Amma canım məmləkətim bu sahədə çox əliaçıqdır. Yay-qış-payız-yaz səni şok vəziyyətinə salacaq əndrəbadiliklərə imza atmağı bacarır. Baxın, yay gəlib, istirahət etmək istəyirsiz, amma çimərlikləri hasara alıblar. Kimsə villasının qabağında dəniz görmək istəyir deyə sən və uşaqların ona həsrət qalırsan. Maraqlanın Bakı kəndlərinin sakinlərindən, o dənizi hasarlayan harınlar heç o villalarda qalmırlar da, aylarla işıqları yanmır. Qosqoca dəniz özü üçün çağlayır, çağlayır... Bir nəfər də onun qoynuna ata bilmir özünü. Zarafat deyil, adamlar uşaqlarını xaricdə oxudublar, uşaqlar Avropanın təhsilini, tərbiyəsini görüb. Onlar qayıdıb bu şəhərdə istirahət etmək istəyərmi? "Evdə pul var" axı, o pulla da ən təmiz, ən gözəl, turizmin bütün tələblərinə cavab verən yerlərdə canlarına istirahət verirlər. Tamam, ekzotika xatirinə yay boyu 3, yaxşı, lap 5 gün "papanın könlünü xoş etmək" üçün o bağda qalırlar... Yerdə qalan 85 gün də siz kasıba göz dağı olsun.

Özəl çimərliklərimiz də varmış... Çaşıb ora getmək istəsəz, yarım aylıq məvacibinizu unudun, bir zəhmət. Jurnalist tayfası bir az tədbirli olar, biz getmədən əvvəl araşdırma aparırıq. Bu şənbə hava küləkli olduğu üçün dedik, bəlkə içində hovuzu olan çimərliyə gedək, həftənin yorğunluğu çıxsın. Bah, nə mümkün? Giriş qiyməti 15 AZN-dən başlanır, bəylər və xanımlar. Ən ucuzunun həm də. 4 nəfərlik ailə çaşıb, o xlorlu hovuza girmək istəsə, 60 AZN-in başından keçməlidir. Bu, təkcə içəri girmək üçün tələb olunan məbləğdir. Əvəzində nə verirsən, qardaşım? Stol-stul, şezlonq... Üstəgəl, girişdə şərt də qoyurlar: özünüzlə yemək, su, əlavə qida gətirə bilməzsiniz... Yəni, sən kasıb heç olmasa yemək, çay xərcini ucuza başa gətirmək istəsən, buna da icazə yoxdu. Bəli, gələcəksən, bizim 3 sümüyə (onlar adını kabab qoyurlar) 40 manat aldığımız menyudan yararlanacaqsan, dükanda 60 qəpik olan qazlı içkini bizdən 3 manata alacaqsan.... Məcbursan, alacaqsan. Susuzluqdan dili-dodağı yanan uşağını yalvardacaq deyilsən ki? Bir günlük çimərlik "keyfi" 100-150 manata oturdumu sənə? Qardaşlar şezlonqun, plastmas stol-stulun maya dəyərini səndən bir neçə dəfə çıxırlar. Ürəkləri sakitləşmir, "uçastkovi"nın, "sanepidstansiya"nın.... görüm-baxım xərclərini də belinə yükləyirlər.

Adına turizm bölgəsi deyilən rayonlarda isə bundan betər hoqqalar çıxarıblar. Meşənin içində gəzə bilmirsən. Utanmadan yekə bir lövhə basdırırlar yerə: Bura giriş pulludur. Fotofaktlar var, mübaliğə etmirəm. Halbuki Avropanın o yaşıllıq meşələrində nələr olur, xəbəriniz varmı? İllər öncə kimsə meşənin içində ev tikib və indi yiyəsizdir. Məsələn, isveçrəli istədiyi vaxt üstündə açarı olan o evə gedir, odunu doğrayır, içərisində full əşyaları, bütün şərtləri olan evdə iki-üç gün qalır, sonra isə qayıdır evinə. Ondan tələb olunan bir şey var: gedəndə istifadə etdiyin odunu yenidən yığıb yerinə qoy, qapını bağlamadan öncə bütün təhlükəsizlik şərtlərinə əməl elə.

Bunun üstünə, turizm naziri duz-bibər misalı bilirsiz nə deyir? "Xarici ölkələrə bilet qiymətləri çox bahadır eee".... Təsəvvür edin, bircə dəfə göz ağartsalar, qərar versələr, şair demiş, hər şey qayıdacaq özünə. Amma onlar şikayətlənməyi tərcih edirlər: ucuz olsa yaxşı olardı, gözəl olardı, amma olmur e, neyləyək? Yəni, kasıb, yan, tökül...

"Dəniz mənimdir dedi", heç kimi içəri buraxmadı", "Sürücü keçmiş sevgilisinin heyfini polisdən aldı", "Meşənin girişinə elan vurdu - girə bilməzsiniz", "Nazir "gücsüzük" deyib ağladı", "Çimərlikdəki şezlonqun pulunu 2500 dəfə müştəridən aldı"....

İndi siz deyin: bu, "sərsəm dünya" dediyimiz xəbərlər kateqoriyasına daxil deyilmi?

# Maştağada oğlunun toyuna hazırlaşan ata öldürüldü



**Bakıda qətl hadisəsi baş verib. Sabunçu Rayon Polis İdarəsi 14-cü Polis Bölməsinin rəisi Zaur Bədəlovun APA TV-yə verdiyi məlumata görə, hadisə Maştağa qəsəbəsində qeydə alınıb.**

1972-ci il təvəllüdlü Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Müseyib Ramiz oğlu Həsənov evinin qarşısında qonşusu, 1949-cu il təvəllüdlü Şamil Səməd oğlu Kərimovla mübahisə edib. Daha sonra evdəki bıçağı götürərək qonşusunun ürək nahiyəsindən bir neçə zərbə endirməklə onu qətlə yetirib.

Saxlanılan şəxs ilkin ifadəsində bildirib ki, qonşusu mərhum Şamil Kərimovla ədavətli olub. Mərhum peyin iyi gəldiyindən, Həsənova evindəki tövləni sökməyi təkid edib. Tövlə sökülsə də, Kərimovla ədavət davam edib. Ötən gün qonşular küçədə rastlaşıblar və bu zaman mərhum Kərimov qonşusunu görən kimi yerə tüpürüb. Bunu özünə təhqir hesab edən Həsənov evdən gətirdiyi bıçaqla qonşusunu qətlə yetirib.

Qeyd edək ki, hadisədə təqsirli bilinən Müseyib Həsənov iyulun 21-i qızının nişanına, mərhum Şamil Kərimov isə gələn ay oğlunun toyuna hazırlaşırdı.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# Azərbaycanda su qıtlığı gözlənilmir

**Yaxın gələcəkdə Azərbaycanda hətta quraq illərdə belə böyük su qıtlığı problemi yaranmayacaq. Bunu "Trend"ə Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktor müavini Elbrus Əlizadə deyib.**

Onun sözlərinə görə, Azərbaycan rütubəti çatışmayan ərazidir: "Buna görə də rütubətli aylarda su anbarlarına nə qədər çox su yığılsa, ölkənin bir o qədər də su ilə təmin olunma imkanı güclü olacaq". İnstitutun direktor müavini qeyd edib ki, gələcəkdə Azərbaycanda su qıtlığı probleminin yaranmaması üçün ölkə ərazisində çayların məcrasında və məcradan kənar su anbarlarının yaradılması işlərinin əhatə dairəsini bir qədər də genişləndirmək lazımdır.

E.Əlizadənin sözlərinə görə, ölkə prezidentinin sərəncamı ilə yaxın vaxtlarda Azərbaycanda 100-ə yaxın kiçik su elektrik stansiyası və su anbarları yaradılacaq: "Onların təqribən 10-a yaxını artıq tikilərək istifadəyə verilib. 2020-ci ilə qədər 30-dan çox su anbarının tikilməsi nəzərdə tutulub. Bu sahədə görülən tədbirlər imkan verir ki, yaxın gələcəkdə Azərbaycanda hətta quraq illərdə belə böyük su qıtlığı yaşanmayacaq".

Su anbarlarının tikilməsi üçün əsasən, hansı çayların məcralarından istifadə edilmə zərurətinə gəldikdə isə, E.Əlizadə bildirib ki, artıq şimal çaylarının suyu bir yerə toplanaraq istifadə edilir: "Qusar çay, Qudyalçay, Qaraçay, Vəlvələçaydan sular yığılaraq Taxtakörpü Su Anbarına tökülür. Hazırda Azərbaycanda istifadə edilməsi üçün tələb olunan çaylar Ağsuçay, Girdimançay, Göyçay və Vəndamçay, Filfiliçay, Daşağılçaydır. Bu hövzələrdə də su anbarları yaradılsa, su ehtiyatları artar. Su anbarlarının Zəyimçayda, Kürəkçayda, eləcə də Qanıx, Qabırlı çayları üzərində də tikilməsi çox yaxşı olardı. Onlarda yay aylarında su azalır. Bu da normaldır, amma qalan aylarda orda su var. Şəki və Qax rayonlarının Açınohur alçaq dağlığı hissəsində anbar tikilsə, onda çox böyük ərazilərdə böyük məhsuldar torpaqları suvara bilərik. Bununla həm də əhalinin su təminatı yaxşılaşar. Bu, ətraf rayonların su təminatına da çox böyük kömək edər".

E.Əlizadə onu da qeyd edib ki, su anbarının tikilməsi üçün həmin çaylarda sululuğun normal olması lazımdır: "Adlarını sadaladığımız çaylar Azərbaycanın nisbətən böyük çaylarıdır. Həmin çaylarda sululuqla bağlı problem yoxdur. Burada ekoloji axın anlayışı var. Çaylardan su ehtiyatı suya tələbatın az olduğu qış və yaz aylarında yığılır. Suvarma dövründə həmin su ehtiyatları ekoloji axın şəklində buraxılır".


## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**

**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**




# İcra nümayəndəsinin torpağını alan 48 ilin müəlliməsini aldadıblar

## Şikayətinə obyektiv baxılmayacağı təqdirdə Şükeynə Cəfərova intihara əl atacağını deyir...

**"2012-ci ilin sentyabr ayından bu günədək şikayətimə baxılmayıb. Düz 3 ildir ki, bütün istirahətim, rahatlığım, sağlamlığım əlimdən alınıb. İdarələrə məktub yazmaqdan, məhkəmələrə getməkdən, məyus olub geri qayıtmaqdan ayaqlarım tutulub, əllərim yazmaqdan qabar olub, göz yaşı tökməkdən gözlərim nurunu itirir".**

Bu sözləri "Yeni Müsavat"a müraciət edən Hövsan qəsəbə sakini Şükeynə Cəfərova deyib. Onun sözlərinə görə, qəsəbə ərazisində tikdiyi evi ərazidə dəllallıq edən şəxs başqa bir şəxsə satıb: "48 il müəllimə işləyib və gecələri dərzilik edib, qəpik-qəpik pul yığıb Hövsanda 8 sot torpaq almışam. Torpağı mənə Xanoy Sadıqov satıb. Həmin torpaq Suraxanı İcra Hakimiyyəti başçısının Hövsan kəndi üzrə nümayəndəsi Ağasəlim Əliyevə məxsus idi. Torpağın sənədi yox idi. Xanoy Sadıqov demişdi ki, sənədi mənə sonra verəcək. O, aldığım torpaqda tikinti aparmağıma icazə üçün də məndən pul aldı. Orada 2 mərtəbəli ev tikib hazırladım. Lakin pulum olmadığına görə tamamlama işlərini dayandırmalı oldum. Çalışdığım məktəbdən evimin olduğu ərazi görünür. Günlərin birində işə gələndə gördüm ki, evimin damını vurublar. Əraziyə getdim, öyrəndim ki, Xanoy bacım oğlu Nahid Mahmudovla əlbir olub torpağımı iki yerə bölüb 2 başqa-başqa şəxsə satıblar".

Ş.Cəfərova deyir ki, 2012-ci ilin sentyabrında baş vermiş bu olayla bağlı RPİ-nin 30-cu polis bölməsinə müraciət edib: "Tədqiqatçı İdris Mikayilov işi elə apardı ki, Xanoyla bacım oğlu etdikləri qanunsuz əmələ görə qanun qarşısında cavab vermədilər. Təhqiqatçı "cinayət işi rədd edilsin" qərarını mənə verib işini bitmiş hesab etdi. Uzun şikayətlərimdən sonra həmin bölmədə təhqiqatçı Xəyyam Mirzəyev, sonradan Emin Məmmədov öz iş yoldaşı İdris Mikayılovun çıxardığı ədalətsiz qərarın üzünü heç bir təhqiqat aparmadan köçürüb özümə verdilər. 3 dəfə "cinayət işi rədd edilsin" cavabını alandan sonra üz tutdum Bakı Şəhər Baş Polis İdarəsinə. Bu 3 ildə 1 dəfə məni dinləyən oldu. Hiss etdim ki, yəqin, bir işıq ucu görünər. Nəhayət, təhqiqat aparıldı. Toplanmış materiallara əsasən, evi məni aldadaraq tikdirən, sonra məndən xəbərsiz ikinci dəfə başqasına satan adamların işində dələduzluq cinayətinin tərkibi olduğundan əvvəlki qərarlar ləğv edildi. Faktlara görə Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə cinayət işi başlandı. Bu dəfə işimə Suraxanı RPİ-də baxdılar. İstintaq şöbəsinin baş müstəntiqi Əflatun Səlimov mənə bildirdi ki, "Arxayın ol, danışmışam, cinayətlərini boyunlarına alıblar. Söz veriblər ki, dekabr ayının axırınadək başqa bir ərazidə sənin evini tikib verəcəklər".

2014-cü ildə yenidən Ə.Səlimovun yanına getdim. Məlum oldu ki, evimin satılması ilə heç bir əlaqəsi olmayan Rəşad Mahmudovu çağırıb söhbət ediblər və işi bağlayıblar. 2013-cü ilin sentyabr ayında "Dekabr ayında gəl, evini hazır verəcəklər" deyən Əflatun Səlimov 2014-cü ildə mənə 15 sentyabr 2013-cü il tarixli qərarı verib dedi ki, "Cinayət tərkibi yoxdur, məhkəməyə mülki qaydada müraciət edə bilərsən".

48 ilin müəlliməsi səlahiyyət sahiblərinə səslənir: "Mən bir ana kimi sizdən soruşuram: şikayətimə nə vaxt baxılacaq? Nəyə görə bu cür ağır cinayətlər ört-basdır edilir? Niyə cinayətkarlar cəzasız qalır? Nə vaxt mən və mənim kimilər bu yersiz süründürməçilikdən qurtulacaq?"

Ş.Cəfərova şikayətinə obyektiv baxılmayacağı təqdirdə intihara əl atacağını söyləyib: "Prezidentə, baş prokurora müraciət edirəm, mənə aid olan evin qaytarılmasında mənə, 48 ilin müəlliməsinə kömək etsinlər".

❑ **E.HÜSEYNOV**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Milyonçular, milyarderlər, pulları başlarından axanlar... Onların həyat tərzi, seçimləri, xobbiləri, fobiyaları hər zaman maraq mövzusu olub. Xüsusən də o boyda pul qazanandan sonra gəldikləri nöqtə. Məsələn, miraslarla ilə bağlı verdikləri ilginc qərarlar. Zaman-zaman milyardlıq mirasını itinə, pişiyinə verən... milyarderlər barədə xəbərlər yazırıq.**

# Biri mirasını itə verir, o biri katibəsinə...

## Dünyanın ən qəribə vərəsəlik hekayələri haqda nə bilirik?



"Yeni Müsavat" bu günə qədər qəribə vərəsəlik hekayələri yaşayan və yaxınlarına da bunu yaşadan milyarderlər barədə yazır. Dünyaya səs salmış bu hekayələrin bəzilərini yada salaq.

Amerikalı məşhur milyarder Edvard Koç 40 ildir ki, ona xidmət edən katibəsinə mirasından 100 min dollar verib. Şəxsi köməkçisi olan Meri Qarriqan haqqında "mənə uğur gətirən qadınlardan biridir" dediyini nəzərə alsaq, bu, o qədər də böyük məbləğ sayılmaz. E.Koç katibəsini 1975-ci ildə işə götürmüşdü.

İngiltərədə 87 yaşında dünyasını dəyişən Dennis Sears isə 3 milyon 850 min dollarlıq mirasını öz ailəsi əvəzinə türk dayəsinə verib. Onun bildirdiyinə görə, ölümündən əvvəlki 14 ay ərzində ona ailəsi yox, türk dayə Nermin Kencefer qulluq etdiyi üçün bunu haqq edir. Searsın ailəsi buna etiraz edərək, məhkəməyə müraciət etsə də, heç bir faydası olmayıb.

Nyu-Yorkda bir otellər şəbəkəsinin rəhbəri milyarderlik sərvətini itlərinə miras qoyub. Leona Helmsley adlı milyarderin miras sənədi daha sonra yaxınlarına və mediaya açıqlanıb. 8 milyard dollarlıq sərvətinin böyük bir hissəsi isə ancaq öz iti Troubla ayrılıb.

**Uşaqlarını mirasından məhrum etdi, çünki...**

Var-dövləti 76 milyard dollar dəyərində qiymətləndirilən, dünyanın məşhur "Microsoft" korporasiyasının təsisçisi Bill Qeyts uşaqlarını miras hüququndan məhrum etmək qərarına gəlib.

Belə ki, milyarder ölümündən sonra ona məxsus bütün pulların "Bill & Melinda Gates Foundation" Xeyriyyə Fonduna köçürülməsini vəsiyyət edib. Dünyada yoxsulluğun azaldılması, tibb və təhsilin keyfiyyətinin yaxşılaşdırılması ilə məşğul olan fond dünyanın ən iri xeyriyyə təşkilatı hesab edilir.

Məlum olduğu kimi, B.Qeytsin üç uşağı - qızları Cennifer-Katarin və Fbi-Adel və oğlu Rori-Con var. "Microsoft" yaradıcısı bildirib ki, onun var-dövləti uşaqlarına miras qalmayacaq. O, öz qərarına izah verərək uşaqların firavanlıq üçün işləməyin vacib olmasını başa düşmələrini, qərarı həyat yoldaşı ilə birlikdə qəbul etməsini deyib.

B.Qeytsin uşaqları atalarının mirasından məhrum olmasına baxmayaraq həyatda uğurlu başlanğıc üçün lazım olan hər şeyi əldə edəcəklər. Belə ki, milyarder uşaqları ən yaxşı təhsil ocağında oxuyur və gələcəkdə onların yüksək nailiyyətlər əldə etmələri üçün bütün lazımi şərait yaradılıb, - "Novoston" yazır.

**Gündə 5 dəfə siqaret çəksə, mirasım ona qalacaq**

Digər əcaib miras hekayələrinə də nəzər salaq.

Siqaret hərisi Samuel Bratt öz vəsiyyətini intiqam məqsədi ilə yazıb. Belə ki, birgə həyat boyu siqaret çəkməyə icazə verməyən həyat yoldaşına miras qoyduğu milyonları yalnız bir şərt ilə almağı vəsiyyət edib: həyat yoldaşı gündə 5 siqaret çəkməlidir.

Milyoner xanım Leona Hamsley öz nəvələrinə 5 milyon, itinə isə 10 milyon dollar miras qoyub. Mirası itin əlindən almasınlar deyə, it öləndən sonra sahibi Leonanın yanında qiyməti 10 milyon dəyərində olan qara mərmərdən hazırlanmış nəhəng mavzoleydə basdırılmağı vəsiyyət edib.

Ən müəmmalı vəsiyyətnaməni isə milyarder Michele Rotshild yazıb. Vəsiyyətdə yazılıb: "Heç kəs mənim sərvətimin dəyərini ölçməsin, siyahıya almasın, heç bir şəxs arasında bölünməsin və heç bir dövlət orqanları buna müdaxilə etməsin!"

Buna görə də cənab Rotshildin mirası indiyədək bölünməz olaraq qalıb. Ən uzun mirası isə Birləşmiş Ştatların yaradıcılarından olan Thomas Jefferson yazıb. Onun vəsiyyətnaməsi Amerikanın tarixi, yaradıcıları haqqında, baş vermiş hadisələr, bayramlar, bədbəxt hadisələr, müharibələr haqqında ətraflı şəkildə yazılmış məlumat ilə başlayır. Sonda isə yalnız bir sətir cümlə ilə vəsiyyət sona çatır: "Oğlum öz qullarını azadlığa buraxandan sonra mənim mirasıma sahib ola bilər!"

Henri Ford isə öz mirasından 500 milyon nağd pulu 4157 təhsil və xeyriyyə fondları arasında bölüşdürməyi vəsiyyət edib. Bu miras tarixdə vəsiyyət olunmuş ən böyük nağd pul hesab olunur.

**Arvadına bir şərtlə miras qoydu: "Məndən dərhal sonra ərə getsin!"**

Ən qəliz və oxunması mümkün olmayan vəsiyyəti isə dahi fizik Nils Bor yazıb. Onun vəsiyyəti yalnız fiziki terminlərdən ibarət olduğu üçün adi insanların oxuması mümkünsüz idi. Bunun üçün xüsusi olaraq ekspert-linqvistlər dəvət olunub ki, tam 3 aydan sonra vəsiyyət oxunub başa çatdırılıb.

StarTeck fenomeninin yaradıcısı Jene Rodenberry öləndən sonra meyitini kosmosa aparmağı vəsiyyət edib. 1997-ci ildə ispan peykinin köməyi ilə meyitin külü açıq səmaya atmosferin yuxarı qatına səpilib.

1841-ci ildə yazıçı Henrie Gayne Eugenie Mirat adlı savadsız, kobud bazar satıcısı ilə ailə həyatı qurub. Öz vəsiyyətnaməsində Gayne bütün var-dövlətini yoldaşına miras qoyub. Yalnız şərtlə: o, öləndən sonra dərhal ərə getməlidir ki, kimsə Gaynenin öldüyünə təəssüflənsin deyə.

**Qəribə miras planı olan azərbaycanlı da varmış...**

"Lukoyl"un prezidenti Vahid Ələkbərov neft şirkətində ona aid olan səhmləri ilə bağlı vəsiyyətini elan edib. Ələkbərov neft şirkətindəki səhmlərini xüsusi xeyriyyə fonduna ötürəcəyini, varislərinin isə ondan birbaşa istifadə edə bilməyəcəyini açıqlayıb.

Onun fikrincə, bu addım "Lukoyl"un direktorlar şurası və səhmlərin vəsiyyət ediləcəyi xeyriyyə fondu üçün yaxşı siqnaldır: "Bu gün dünya ictimaiyyəti nəinki mənim həyatda olduğum müddətdə, hətta məndən sonra da şirkətin stabilliyinin təmin ediləcəyi üçün bu addımı yaxşı qarşıladı". Daha sonra azərbaycanlı iş adamı əlavə edib ki, onun ailə üzvləri benefisiarlar olaraq qalacaqlar, lakin məhdud həcmdə.

Qeyd edək ki, hələ 2013-cü ilin sentyabrında Ələkbərov bildirmişdi ki, onun varisləri uzun zaman ərzində "Lukoyl"un səhmlərini sata bilməyəcəklər. Ələkbərovun sözlərinə görə, öz vəsiyyətində də qeyd edib ki, şirkətdəki səhmləri idarə etmək üçün fond yaradılacaq və varislər uzun müddət ona yaxın dura bilməyəcəklər (qafqazinfo).

Türkiyəyə yatırdığı investisiyalarla tanınan, israilli dünyaca məşhur iş adamı Sami Oferin oğlu Dalya Oferin, uzun müddət öncə İslamı qəbul etdiyi üzə çıxıb. Ofer Türkiyənin mətbuatına verdiyi açıqlamada 5 ildir müsəlman olduğunu bildirib. Sami Oferin ölümündən sonra Dalya Ofer atasından qalma 18 milyard dollarlıq sərvəti rədd etməsi ətrafında ciddi qalmaqal yaşanmışdı.

Sammi Ofer, şirkətinin 52,4 faizlik qismini ikinci həyat yoldaşından olan, lakin üzünü heç vaxt görmədiyi oğlu Dalya Oferə miras buraxmışdı. Dalya Ofer, "Ofer Qardaşlar Qrupu"nun rəhbərliyinə gəlmiş və 18 milyard dollarlıq sərvətin ortağı olmuşdu. Vəsiyyətə görə Dalya, ailənin içinə girdikdən sonra, bu sərvətə sahib olacaqdı. Dalya Ofer həyatı boyu heç vaxt görmədiyi iki qardaşı Eyal Ofer və Idan Oferi beləliklə tanımış oldu. Qardaşlar arasında böyük bir irs davası başlayarkən Dalya Ofer qısa müddətdə "Ofer Holdinq"in prezidenti kürsüsündə oturdu. Ofer qardaşların arasındakı davanın böyüməsindən qısa müddət sonra Dalya Ofer atası Sami Oferin 18 milyard dollarlıq sərvətini rədd etdi, Holdinqdən istefa verdi.

Mediada yayılan məlumatlara görə, qardaşlar Dalya Ofer İslamı qəbul etdiyi üçün ona sui-qəsd hazırlayırlarmış. Şirkət əməkdaşlarından Yasəf Beraha mətbuata bəyanatında Dalya Oferin, Dubay kral ailəsinin üzvü Xamdan əl-Məktum ilə illərdir görüşdüyünü və onun vasitəçiliyi ilə Məkkədə Ümrə ziyarəti edərək, İslamı qəbul etdiyini açıqladı. Bəyanatda bildirilirdi ki, Dalyanın qardaşları Eyal və İdan bundan çox narahat olsalar da, Xamdan əl-Məktumdan çəkindikləri üçün ona heç nə edə bilmirlər. Həmçinin, Dalya Oferin holdinqə prezident olmasından yəhudi lobbisinin də narahat olduğu deyilirdi.

**Onlar vərəsəlik planı olmayan milyarderlərdir**

Gənc milyarderlər isə hələ bu barədə düşünmür və vərəsəlik hazırlamayıblar. Onların siyahısına nəzər salaq:

Evan Spiegel. Yaşı: 24. Sərvəti: 1.5 milyard dollar. Son zamanların məşhur tətbiqi olan "Snapchat"ın qurucu ortaqlarından biridir. 2013-cü ildə Facebook-un 3 milyard dollarlıq təklifini rədd etdi və bu anda təxminən 10 milyard dollar dəyərində olan bir şirkəti idarə edir.

Bobby Murphy. Yaşı: 25. Sərvəti: 1.5 milyard dollar. "Snapchat"ın Evan Spiegel ilə digər qurucu ortaqlarından olan Bobby Murphy şirkətin baş texnoloqudur.

Albert von Thur und Taxis. Yaşı: 31. Sərvəti: 1.5 milyard dollar. Milyardlarına 18-ci doğum günündə hədiyyə olaraq qovuşan alman şahzadəsinin sərvəti, sənət əsərləri, əntiq və s. ibarətdir. Subaydır və idmanı xüsusilə avtomobil yarışlarını çox sevir və özü də bir alman liqasında yarışır.

Marie Besnier-Beauvalot. Yaşı: 33. Sərvəti: 2.7 milyard dollar. Ona və qardaşlarına babalarının qurduğu bir süd məhsulları şirkəti miras qaldı. Şirkətin sahibi artıq tamamilə onlardır.

Elizabeth Holmes. Yaşı: 30. Sərvəti: 4.5 milyard dollar. "Forbes" siyahısına yeni girən Elizabeth Holmes bu vəziyyətə öz əməyi ilə gəlib desək, səhv olmaz. 2003-cü ildə "Theranos" adında bir qan köçürmə şirkəti qurub.

Eduardo Saverin. Yaşı: 32. Sərvəti: 4.9 milyard dollar. Varlı bir ailədən olan Eduardo Saverin Facebook-un qurucu ortaqlarından olub, haqqının tapdandığını iddia edərək Zukerbergi məhkəməyə verib. Hələ də Facebook-un səhmdarlarından biridir. Həmçinin, başqa şirkətlərdə investordur.

Yang Huiyan. Yaşı - 33. Sərvəti: 4.9 milyard dollar. Atası Yeung Kwok Keung quruculuğunu etdiyi "Country Garden Group"daki hissələrini 2007-ci ildə qızı Yang Huiyana həvalə edib.

Scott Duncan. Yaşı: 32. Sərvəti - 6.2 milyard dollar. Atası Dan Duncanın qurduğu "Enterprise Products" adlı boru xətti şirkəti ona miras qalıb. Keçən il şirkəti yaxşı mənfəət əldə etdiyi üçün sərvəti də 1 milyard dollar artıb.

Dustin Moskovitz. Yaşı: 30. Facebook-un üzünə güldüyü gənc adamlardan biri. Dustin Moskovitz Facebook-un ilk zamanlarından Markla birlikdə çalışıb.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 151 (6179) 13 iyul 2015

# İnsanlar bir-birini ancaq 6 ay cəzb edir

Amerika araşdırmaçıları ikili münasibətləri rəqəmlərdə belə əks etdiriblər. Onlara görə məhəbbətin ömrü 3 ildir. Fərdlər arasındakı eynitərzli cinsi münasibətin həzz müddəti 6 aydır. Sadə cinsi ehtirasın cəzbediciliyi isə 3 aydır. Onların fikrincə, sonuna qədər davam edən insanlar arasındakı bağlılıqdır. Amma bu da cəmisi 5 il çəkir. Rəqəmlər çox pessimist görünür. Araşdırmaçılar bildirib ki, bu, münasibətlərin 35 faizinə aiddir.





## Göbələk 50 min dollara satıldı

İtaliya bölgəsi olan Umbriyada tapılan trüfel göbələyi dünyanı heyrətə salıb. Onun çəkisi cəmi 1,89 kiloqram olsa da, 50 min dollara satılıb. Ağ trüfel sözügedən bölgədə əsasən oktyabr-dekabr aylarında tapılır. Bu göbələyi ancaq xüsusi təlim keçirmiş itlər tapa bilir.

Lenta.ru saytı yazıb ki, trüfel hər zaman astronomik məbləği ilə diqqət çəkib. Belə ki, 2013-cü ildə bir cüt trüfel 90 min dollara satılıb. 2010-cu ildə isə iki ağ rəngli trüfel İtaliyada keçirilən bir auksionda 330 min dollara satılıb. Eyni ildə İtaliyada keçirilən trüfel festivalında 900 qramlıq göbələk 105 min dollara alıcı tapıb.

## Alkoqoliklərə görə skamyanı hasarladılar

Fransanın Anqulem şəhəri rəhbərliyi Marsovo meydanında yerləşən skamyaların hamısını hasara alıb. Hazırda skamyaların heç bir funksionallığı yoxdur. Hasara alınmış skamaların şəkilləri internetdə yayılan kimi istifadəçilər buna neqativ reaksiya bildiriblər.

Şəhər meri Ksavye Bonnefont və onun müavini Ljol Qvinton bu neqativ reaksiyalara cavab olaraq bildiriblər ki, bu skamyalardan bir qayda olaraq alkoqol qəbul edən insanlar istifadə edir. Məmurlar bildiriblər ki, məhdudlaşdırmanın səbəbi bu insanların şəhərin mərkəzində yatmalarının qarşısını almaqdır. Daha sonra şəhər rəhbərliyi internet istifadəçilərinin də reaksiyasını nəzərə alıb və skamyaların ətrafındakı dəmirlər çıxarılıb. Bununla belə, Bonnefont bildirib ki, yekun qərar hələ qəbul edilməyib və yeni ilin əvvəlində skamyalarla bağlı yeni qərar qəbul edilə bilər.

## İnsanların ömrü 6 il uzanıb

Yeni tədqiqatlar göstərib ki, dünyanın, demək olar, hər yerində ömür müddəti uzanıb. Zəngin ölkələrdə xərçəngdən və ürək-damar xəstəliklərindən, yoxsul ölkələrdə isə vərəmdən və malyariyadan ölüm halları 25 il qabaqkı göstəricilər ilə müqayisədə xeyli azalıb. Orta ömür müddəti 1990-2013-cü illər dövründə kişilər üçün 5,8 il, qadınlar üçün isə 6,6 il artıb. Əldə edilmiş nəticələr "The Lancet Medical Journal" nəşrində dərc olunub. Alimlər ölüm hallarının azalması, ömür müddətinin artması uğrunda mübarizədə birgə səylərin rolunu, habelə potensial öldürücü infeksiyalardan vaksinlərin axtarışının və işlənib hazırlanmasının maliyyələşdirilməsinin əhəmiyyətini vurğulayırlar. Diabet, böyrək xəstəliyi və qara ciyər sirrozu kimi xroniki xəstəliklərin daha ətraflı öyrənilməsi sonrakı mərhələ olacaq.

Tədqiqat göstərib ki, 1990-cı ildən sonrakı dövr ərzində dünya üzrə vaxtsız ölümlərin əsas səbəblərindən biri qara ciyər xərcəngi, ürək ritminin pozulması, narkotiklərdən istifadə, xroniki böyrək xəstəlikləri, qanazlığı, diabet və mədəaltı vəzi xərçəngi olub. Qlobal səhiyyə sahəsində professor Kristofer Mürrey Vaşinqton Universiteti (ABŞ) nəzdində apardığı tədqiqatını belə şərh edib: "Biz müxtəlif xəstəliklərə qarşı mübarizədə böyük irəliləyişlər görsək də, daha yaxşı nəticələrə nail olmalıyıq".






## Əkiz anaları çox yaşayır

Əkiz anaları çox yaşayır. Amerika mətbuatının verdiyi məlumata görə, bu, 59 min qadın arasında aparılmış araşdırma nəticəsində sübut olunub. Alimlər araşdırmanın nəticəsinə kənar amillərin təsir etməməsi üçün əkiz uşaq anası olmuş qadınlar arasında sorğu keçirib. Bununla da hamiləliyə qarşı həblərin, sonsuzluğu aradan qaldıran dərmanların və digər faktorların tədqiqata təsir ehtimalı aradan qaldırılıb.

Tədqiqatçılar əkiz uşaq anası olan qadınların hansı səbəbdən daha çox yaşadığını hələ ki, müəyyənləşdirə bilməyib.




QOÇ - Fiziki cəhətdən zəiflədiyinizdən fəaliyyət barədə az düşünün. Hansısa riskli işə baş qoşmağa dəyməz. Saat 15-dən sonra şəxsi büdcənizdə müəyyən artımlar gözlənilir. Səfərə çıxmayın.

BUĞA - Olduqca rəvan bir gündür. Çoxsaylı və maraqlı hadisələrlə rastlaşacaqsınız. Amma acıdil adamların atmacalarına təmkinlə yanaşmalısınız. Sürprizlər də gözlənilir.

ƏKİZLƏR - Adətən ilin bu ərəfəsində Ay sizin bürcdə olanda mütləq səhhətlə bağlı problemlə üzləşirsiniz. Bunu nəzərə alıb qeyri-ənənəvi işlərdən uzaq olun. Yalnız səfərə çıxmaq uğurludur.

XƏRÇƏNG - Göy qübbəsi süstlük içində olduğunuzu göstərir. Amma ümidsizləşməməli, həyata daha nikbin nəzərlərlə baxmalısınız. Kollektiv şəkildə mənəvi istirahət etmək istəyirsinizsə, tələsin.

ŞİR - Başqalarının adınızdan istifadə etməsinə imkan verməyin. Çalışın ki, öz işinizə özünüz qərar verəsiniz. Səhhətinizə fikir verməyi tövsiyə edən ulduzlar varlanacağınızı da bildirir.

QIZ - Yaxşı olar ki, zehni işlərinizi azaldıb daha çox dincələsiniz. Fəaliyyətə isə ümumiyyətlə ara verin. Günün ikinci yarısını ailə-sevgi münasibətlərinə həsr edin.

TƏRƏZİ - Büdcənizdə artım etmək üçün imkan qazana bilərsiniz. Bu səbəbdən də alacağınız əmanətləri əldə etmək üçün ciddi addımlar atın. Bu gün "çağrılmamış qonaq" rolunda çıxış etməyin.

ƏQRƏB - Əgər səhhətiniz qaydasındadırsa, başqa məsələlərdə nigarançılıq çəkməyəcəksiniz. Nahar ərəfəsində aldığınız dəvətlərdən imtina etməyə çalışın. Qiymətli əşyalarınızı bərk-bərk qoruyun.

OXATAN - Nahara qədər bütün ciddi işləri təxirə salın. Yoxsa gərginlikdən qurtula bilməyəcəksiniz. Bədxah insanlarla rastlaşma ehtimalınız da var. Bacardığınız qədər təmkinli olun.

OĞLAQ - Maddi rifahınız normal olsa da, münasibətlər zəminində müəyyən sıxıntılarla üzləşə bilərsiniz. Bu isə son vaxtlar güzəştə getməməyinizdən doğur. Nahardan sonra mənəvi istirahətə yer verin.

SUTÖKƏN - Maraqlı görüşləriniz gözlənilir. Ola bilsin ki, həsrətində olduğunuz şəxslərlə rastlaşasınız. Saat 14-17 arası yeni işlərlə bağlı səmərəli sövdələşmələriniz də mümkündür.

BALIQLAR - Gələcək perspektivlərlə bağlı apardığınız bütün sövdələşmələriniz uğurlu olacaq. Odur ki, istənilən görüşdən imtina etməməlisiniz. Bu təqvim alqı-satqı üçün də düşərli ola bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Afrikada makiyajın "anası" kişilər çıxdı



Müasir dünyada qadınları daha çox makiyajın əsiri olmaqda ittiham edirlər. Bəzən gecə və gündüz makiyajlarının sərhədləri qarışdırılır, hətta bəzi qadınlar gözəl olmaq adına özlərini rəzil edirlər. Amma tarix göstərir ki, dünya boyu ilk dəfə makiyajın edilməsi kişilərin adı ilə bağlıdır. Aparılan tədqiqatlar göstərir ki, bəzi qədim xalqların kişiləri makiyaj ediblər. Məsələn, bəzi Afrika ölkələrində kişilər də kosmetik vasitələrlə üzlərini boyayaraq düşməndən qorunmaq, üzünü gizlətmək məqsədilə istifadə edirlər. Eyni zamanda, bir çox dini ayinlərlə əlaqədar olaraq üzü boyamaq Afrika tayfaları arasında geniş yayılıb. Onlar düşməni qorxutmaq məqsədilə bədənlərinin bəzi hissələrini və üzlərini müxtəlif rənglərə boyayırdılar. Mayalılar və hindular qırmızı boyadan istifadə edirdilər. Qədim Şərqdə isə makiyajdan kimisə qorxutmaq üçün yox, daha gözəl görünmək üçün istifadə edirdilər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.